RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 125 (8441) CÜMƏ AXŞAMI, 2 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Daxili İşlər naziri, general-polkovnik Vilayət EYVAZOV: “Dövlətin və xalqın mənafeyinə, Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin fəaliyyət kursuna sədaqətli, peşəkar xidmət Azərbaycan Polisinin əsas vəzifə borcudur”

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan iqtisadi-sosial inkişaf modeli ilə yanaşı, həm də təhlükəsizliyin və sabitliyin etibarlı təminatı baxımından dünyada mükəmməl nümunələrdən birini yaradıb. Beynəlxalq terrorçuluğun və transmilli cinayətkarlığın sərhəd tanımadığı, kriminogen durumun qlobal miqyasda kəskinləşdiyi müasir dövrdə ölkəmiz cənab Prezidentin təbirincə desək, sabitlik adasına çevrilib. Bu nailiyyətin əldə olunmasında şübhəsiz ki, daxili işlər orqanlarının əzmkar fəaliyyəti də mühüm səciyyə daşıyır.

102-ci ildönümünü qeyd edən Azərbaycan polisi ictimai asayişin qorunmasında, müstəqil dövlətimizə qarşı yönələn cinayətkar qəsdlərin qarşısının alınmasında müstəsna xidmətlər göstərir. Torpaqlarımızın müdafiəsi, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə və digər istiqamətlərdə qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirir.

Polis Günü ərəfəsində həmsöhbət olduğumuz Daxili İşlər naziri, general-polkovnik **Vilayət EYVAZOV** bu tarixi nailiyyəti Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi srtateji kursla əlaqələndirir. Nazirin fikrincə, qlobal pandemiya ilə bağlı ciddi sınaqlarla üzləşdiyimiz bu çətin günlərdən də məhz düzgün yürüdülən mübarizə strategiyası və Prezident-Xalq həmrəyliyi sayəsində qurtulacağıq.

*- Cənab Nazir, Azərbaycan Polisi 102-ci ildönümünü ənənəvi olmayan dönəmdə - qlobal pandemiyanın kütləvi fəsadlarına qarşı aparılan mübarizə şəraitində qeyd edir. Ötən 4 aya yaxın dövr üçün sərt karantin rejimində polis fəaliyyətinin ilkin nəticələrini necə qiymətləndirirsiniz?*

- Öncə bir məqama xüsusi diqqət ayırmaq istərdim. Həqiqətən də, pandemiya elə qlobal fəsadlar və kəskin problemlər yaradıb ki, onun ağır nəticələri bütün dünyada özünü hiss etdirir.

Ötən aylar ərzində fövqəldövlətlərin koronavirus qarşısında aciz qaldığını, ən güclü səhiyyə sisteminə malik ölkələrdə insanların müalicəsi üçün xəstəxanaların çatışmadığını, dünya iqtisadiyyatında aparıcı rola malik dövlətlərin ciddi böhranla, vətəndaşlarının isə böyük sosial çətinliklərlə üzləşdiyini müşahidə etdik. Bu acınacaqlı mənzərə təəssüf ki, hər gün daha da kəskinləşir.

Bu bəla Azərbaycandan da yan keçməyib. Mart ayından etibarən ölkədə karantin rejimi tətbiq olunub və müəyyən dövrlərdə daha da sərtləşdirilib. Möhtərəm Prezident ilk gündən pandemiyanın yarada biləcəyi çətinlikləri düzgün müəyyənləşdirdi və preventiv tədbirlərlə koronavirusun tibbi, iqtisadi, sosial, psixoloji fəsadlarına qarşı sistemli mübarizə strategiyası formalaşdırdı. Qabaqlayıcı addımların atılmasına dair konkret göstərişlər verdi. Təsadüfi deyil ki, martın sonlarında elan olunmuş və aprel ayından icrasına başlanan sosial-iqtisadi dəstək proqramı sayəsində indiyədək ölkə iqtisadiyyatına, sahibkarlara, işsiz vətəndaşlara, aztəminatlı təbəqələrə və digər həmvətənlərimizə dövlət tərəfindən 3, 5 milyard manatdan artıq vəsait ödənmişdir.

Həmin sosial-iqtisadi dəstək kampaniyası isə tibbi müdafiə tədbirləri ilə paralel aparılırdı. Qısa müddətdə ölkənin səhiyyə sisteminin infrastruktur və mütəxəssis bazası pandemiya dövrünə uyğunlaşdırıldı, təkmilləşdirildi, yeni modul xəstəxanalar istifadəyə verildi.

Bu prosesdə Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ilk gündən göstərdiyi təşəbbüslər və səylər, aidiyyəti dövlət orqanları rəhbərlərinin iştirakı ilə keçirdiyi müşavirələrdə qəbul edilən qərarlar pandemiya ilə mübarizənin səmərəliliyinin artmasını şərtləndirdi, habelə Heydər Əliyev Fondunun ölkə boyu təşkil etdiyi böyük humanitar dəstək aksiyaları xalqımız tərəfindən minnətdarlıqla qarşılandı.

Ölkəmizin pandemiyaya qarşı mübarizə strategiyası beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Bütün bunlar xalqımızda dövlətə, iqtidara həm etimadı yüksəldir, həm də dövlət başçısının siyasətinin alternativsizliyini təsdiq edir. Nəticə etibarilə Prezident İlham Əliyevin “Biz birlikdə güclüyük!” çağırışı ümummilli səfərbəredici qüvvəyə çevrilib və vətəndaşlarımız bu bəladan xilas yolunda öz Liderinin ətrafında daha sıx birləşib. Ölkə rəhbərinə son aylarda ünvanlanan on minlərlə vətəndaş məktubları da bu həqiqəti tam təsdiqləyir.

Ardı 3-cü səh.

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında” 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2020-ci il*

## Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2020-ci il*

## «Əkinçi»dən başlayan milli mətbuata dövlət qayğısı

Azərbaycan Prezidenti İlham Əliyev ənənələrin qorunması və təbliği məqsədilə, KİV-in ölkəmizin ictimai-siyasi həyatındakı yerini və müasir cəmiyyət quruculuğu prosesində rolunu nəzərə alaraq milli mətbuatın 145 illik yubileyinin keçirilməsi haqqında 30 iyun 2020-ci il tarixdə imzaladığı sərəncam da bunun təsdiqidir




Söz və mətbuat azadlığı hər bir xalqın taleyində mühüm amillərdən sayılıb. Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, eləcə də ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı “Əkinçi”dən başlayaraq xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə, ölkəmizin davamlı inkişafına öz layiqli töhfəsini verib.

Demokratik cəmiyyətin formalaşmasında bu amilin oynadığı rol böyük əhəmiyyət daşıyıb. Məhz bu prinsipi əsas tutaraq Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətdə olduğu istər sovetlər dövründə, istərsə də müstəqillik illərində mətbuatın cəmiyyətin aynası funksiyasını yerinə yetirməsi üçün zəmin yaradılmasını vacib sayıb.

Ardı 7-ci səh.

## Prezident nümunəsi və mənəvi məsuliyyətimiz

**Ümumdünya qlobal böhranına çevrilmiş COVID-19 pandemiya hadisəsi xalqları və ölkələri gözlənilməz bəlaya düçar etmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasət xalqımızın bu ağır bəladan ən az itkilərlə çıxmasına şərait yaratmışdır.

Prezident İlham Əliyevin pandemiya dövründə apardığı müdrik siyasət beynəlxalq aləmdə, dünya birliyində böyük əks-səda doğurmuşdur. Ölkə Prezidenti koronavirusla mübarizə şəraitində dünya dövlətlərinin qarşılıqlı əməkdaşlığı və həmrəyliyi vasitəsilə qlobal böhrana qarşı birgə mübarizə aparmağın nümunəsini göstərir. Türkdilli dövlət başçılarının və Qoşulmama Hərəkatı ölkələrinin, Ümumdünya Səhiyyə Təşkilatının rəhbərləri, Dünya Bankı rəsmilərinin iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən onlayn videokonfranslar beynəlxalq aləmdə böyük əks-səda doğurmuş, yüksək rəğbətlə qarşılanmışdır. Bütün bunlar həm ölkə daxilində, həm də beynəlxalq aləmdə pandemiya ilə mübarizə aparmağın Azərbaycan örnəkləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr olunmuş xüsusi sessiyasının təşkil edilməsinə beynəlxalq birlik tərəfindən dəstək verilməsi müstəqil dövlətimizin həyatında çox əlamətdar hadisədir. Bu, müstəqillik dövrü Azərbaycan tarixinin ən mühüm nailiyyətlərindən biri, dövlətçiliyimizin və diplomatiyamızın real təntənəsidir. Bu, hər bir Azərbaycan vətəndaşı üçün sözün əsl mənasında qürurverici tarixi hadisədir.

Beynəlxalq miqyasda və ölkə daxilində dövlət səviyyəsində həyata keçirdiyi məqsədyönlü tədbirlərlə bir sırada Prezident İlham Əliyev həm də pandemiya dövrünün tələblərinə ciddi surətdə əməl etməyin əsl nümunəsini göstərir. Cənab Prezident ölkəmizin paytaxtı Bakı şəhərində və regionlarda keçirdiyi, iştirak etdiyi bütün tədbirlərdə özü maskadan istifadə etməklə, sosial məsafə gözləməklə bu işin məsuliyyətini və əhəmiyyətini əyani surətdə nümayiş etdirir.

Ardı 4-cü səh.



## Koronavirusla mübarizə milli təhlükəsizlik məsələsidir

Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən islahatlar öz müsbət nəticələrini verir. Xüsusilə qeyri-neft sektorunda və regionların sosial-iqtisadi inkişafında daha böyük nailiyyətlər qazanılır. Aparılan islahatlar və regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası sayəsində elə sahələr var ki, burada artım faizlə deyil, dəfələrlə ölçülür.

Ölkənin hərtərəfli inkişafı məqsədilə 2004-cü ildən indiyə kimi üç dövlət proqramı uğurla icra edilib, dördüncü proqramda nəzərdə tutulan işlər davam etdirilir. Bu proqramda nəzərdə tutulan hər bir obyektin vaxtında tikilib istifadəyə verilməsi dövlət başçısının nəzarətindədir. Bu səbəbdən də bir çox layihələrin təməlqoyma və açılış mərasimlərində Prezident şəxsən iştirak edir. Həmçinin regionlarda icra edilən hər bir layihənin sosial-iqtisadi əhəmiyyəti hərtərəfli araşdırıldıqdan sonra onun icrasına start verilir. Bunun sayəsində regionlarda görülən işlər son dərəcə səmərəlidir. İndiyədək fəaliyyətə başlayan çoxsaylı sosial-iqtisadi obyektlər ölkənin hərtərəfli inkişafına öz töhfəsini verir.

Ardı 5-ci səh.

## İlham Əliyev Ermənistan hakimiyyətini ifşa etdi

### “Generalları oğru, qəhrəmanları cinayətkar, prezidentləri rüşvətxordur”

**İki il öncə Ermənistanda uzun illər hakimiyyətdə olan kriminal xunta rejiminin çökməsində Azərbaycan Prezidenti İlham Əliyevin bu işğalçı ölkəyə qarşı tətbiq etdiyi təcrid siyasəti də mühüm rol oynayıb.**

Söhbət ondan gedir ki, məhz bu təcrid Ermənistanı regionda həyata keçirilən transmilli layihələrdən kənarda qoymaqla təcavüzkar ölkəni böyük sosial-iqtisadi problemlər məngənəsinə yuvarlaya bilib. Nəticədə yaranmış durumdan bezən xalq Serj Sarkisyan iqtidarının devrilməsində mühüm rol oynayıb.

Birmənalı həqiqətdir ki, Ermənistanın dövlət olaraq varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, işğal siyasətindən əl çəkməsindən keçir. Əks təqdirdə Ermənistanın indiki çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaq. Yerevan qonşu ölkələrin hamısı ilə münasibətlərini normallaşdırmasa, Dağlıq Qarabağdan silahlı qüvvələrini çəkib işğala son qoymasa, hakimiyyətdə kimin təmsilçiliyindən asılı olmayaraq, bu ölkədə hansısa iqtisadi tərəqqidən danışmaq mümkün deyil.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu günlərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin açılışındakı çıxışında deyib ki, Ermənistanın müstəqillik tarixi prinsipcə rüsvayçılıq tarixidir. Dövlət başçısı vurğulayıb ki, indiki iqtidar artıq dəfələrlə bəyan və sübut edib ki, 1998-ci ildən 2018-ci ilə qədər Ermənistana rəhbərlik etmiş şəxslər cinayətkardır, oğrudur, quldurdur: *“...Onların bir çoxu həbs edilib. Məlum olub ki, onların generalları oğrudur, əsgər tuşonkasını oğurlayıb, sonra bazarlarda satdırırdılar. Onların qəhrəmanları cinayətkardır, onların prezidentləri rüşvətxordur. İndiki hakimiyyət bunları açdı-tökdü. Onsuz da biz bunu bilirdik, indi bütün dünya bunu bilir. Yəni belə çıxır ki, 20 il ərzində bu dırnaqarası müstəqil ölkəyə quldur, rüşvətxor və cinayətkarlar rəhbərlik edib. Bu ölkəyə nə ad vermək olar? Hələ 30 il yoxdur, guya müstəqil ölkə kimi yaşayır, əgər 20 il quldurlar rəhbərlik edibsə, nə ad vermək olar - quldur ölkəsi, cinayətkar ölkəsi”.*

Ardı 6-cı səh.

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin mühafizəsində, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, ölkədə koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejiminə nəzarətin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Ağayev Azay Akif oğlu - polis polkovnik-leytenantı
Ağayev Əlaslan Qaçay oğlu - polis polkovniki
Axundov Taləddin Bahadır oğlu - polis polkovniki
Azadəliyev Fəqan Cəbrayıl oğlu - polis polkovniki
Bağırov Eldar Həsən oğlu - polis polkovniki
Cabbarov Bəkir Bəşir oğlu - polis polkovniki
Əliyev İsmayıl İsrayıl oğlu - polis polkovniki
Hüseynəliyev Şərif Rövşən oğlu - polis polkovnik-leytenantı
İbrahimov Ələşrəf İbrahim oğlu- polis polkovniki
İmamverdiyev Ceyhun Rafiq oğlu- polis kapitanı
İmanov Ramin İman oğlu - polis polkovniki
İsmayılov Əkbər Məcid oğlu- polis polkovniki
Kərimov Elnur Elxan oğlu - polis polkovniki
Qarayev Polad Səhliyalı oğlu- polis polkovniki
Qocayev Şahin Musa oğlu - polis polkovniki
Məmmədzadə Nahid Şiraslan oğlu- polis polkovniki
Mirhəşimov Anar Böyükağa oğlu- polis polkovniki
Muradov Cavid Vidadi oğlu- polis polkovniki
Neymətov Süleyman Əsgər oğlu- polis polkovniki
Pənahov Səbuhi Faiq oğlu - polis polkovnik-leytenantı
Seyidov İlqar Fəxrəddin oğlu- polis general-mayoru
Seyidov Mirzeynalabdin Mir İsmayıl oğlu - polis polkovniki

**"İgidliyə görə" medalı ilə**

Əhmədov Orxan Məhəmməd oğlu- polis mayoru
İmanov Nəriman Bəxtiyar oğlu - polis polkovniki
İsmayılov Ayaz Muxtar oğlu- polis baş leytenantı
Səfərov Yamiddin Vəli oğlu- polis baş serjantı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2020-ci il*

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə ali xüsusi rütbələr verilsin:

**polis general-leytenantı ali xüsusi rütbəsi**

polis general-mayoru Seyfulla Səttar oğlu Əzimova

**polis general-mayoru ali xüsusi rütbəsi**

polis polkovniki Teymur Kamil oğlu Hacıyevə

polis polkovniki Nurullah Abdulla oğlu Məmmədxanlıya.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2020-ci il*

# "Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların Azərbaycan tərəfinin fəaliyyəti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası xarici dövlətlərlə ticarət-iqtisadi, elmi-texniki, humanitar, eləcə də qarşılıqlı maraq doğuran digər sahələrdə əlaqələrin genişləndirilməsinə və gələcək əməkdaşlıq perspektivlərinin müəyyən edilməsinə mühüm önəm verir.

Ötən illərdə xarici tərəfdaşlarla qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi milli iqtisadiyyatımızın şaxəli inkişafına və onun qlobal iqtisadiyyata sıx inteqrasiyasına mühüm töhfə vermişdir. Xarici ölkələrlə əməkdaşlıq üzrə yaradılmış birgə komissiyaların Azərbaycan tərəfi də bu istiqamətdə görülən işlərin effektiv həyata keçirilməsinə əhəmiyyətli dəstək göstərmişdir.

Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların Azərbaycan tərəfinin fəaliyyətinin effektiv formada təşkili və hesabatlığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların Azərbaycan tərəfinin fəaliyyəti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2020-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# İsmayıllı rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İsmayıllı rayonunun əhalisi 37660 nəfər olan 7 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 10 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 700,0 (yeddi yüz) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2020-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyul tarixli Sərəncamına Əlavə***

## İsmayıllı rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Cülyan kəndi | 1 | 1652 |
| 2. | Hacıhətəmli kəndi | 1 | 2883 |
| 3. | İsmayıllı şəhəri | 2 | 25836 |
| 4. | Qalınçaq kəndi | 2 | 2202 |
| 5. | Qubaxəlilli kəndi | 1 | 2310 |
| 6. | Tağlabiyan kəndi | 1 | 247 |
| 7. | Talıstan kəndi | 2 | 2530 |
| Cəmi | | 10 | 37 660 |

# Nazirlər Kabineti yanında Operativ Qərargah sərtləşdirilmiş karantin tətbiq olunmayan bölgələrdəki vəziyyəti müzakirə edib

**İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Baş Nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın geniş tərkibli Respublika videomüşavirəsi keçirilib.**



Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Zeynal Nağdəliyev, Daxili İşlər naziri Vilayət Eyvazov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyev, Baş Prokuror Kamran Əliyev və 77 şəhər və rayonun icra hakimiyyəti başçıları, prokurorları, daxili işlər və dövlət təhlükəsizliyi şöbələrinin rəisləri iştirak ediblər.

Müşavirə zamanı sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilməyən bölgələrdəki epidemioloji vəziyyət müzakirə olunub, karantin qaydalarının icra vəziyyəti qiymətləndirilib. Əhali tərəfindən sanitariya-epidemioloji qaydalara riayət edilməsi üçün nəzarətin gücləndirilməsinə ehtiyac olduğu bildirilib.

Baş Nazir karantin rejiminin yumşaldılması nəticəsində bir sıra şəhər və rayonlarda pozuntuların artmasının müşahidə olunduğunu qeyd edib.

Əli Əsədov rayonlardakı vəziyyətlə bağlı dəqiq statistikanın aparılmasının, yoluxmanın daha çox qeydə alındığı yerlərə nəzarətin, dezinfeksiya və koronavirus xəstələri üçün ayrılmış xəstəxanalarda utilizasiya işlərinin gücləndirilməsinin vacibliyini vurğulayıb. Baş Nazir rayon və şəhər rəhbərləri qarşısında tapşırıqların vaxtında və qüsursuz icra olunması tələbini qoyub.

# "Cənab Prezident, xalqımızı düşünərək atdığınız qətiyyətli addımları yüksək qiymətləndiririk"

Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar dövlət başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir neçəsini təqdim edir.

Tovuz rayonundan Əfqanıstan və Qarabağ müharibələri veteranı **İbrahim Həsənov:** "Hörmətli cənab Prezident, mənim oğlum Həsənov Niyaməddin hazırda Şirvan şəhərində hərbi xidmətdədir. Yeri düşəndə ona baş çəkirəm. Bakı şəhərində keçirilən hərbi andiçmə mərasimində də iştirak etmişəm. Qeyd etməyi özümə borc bilirəm ki, hərbi hissələrdə gördüklərimdən çox məmnun qalmışam. Əsgərlər üçün yaradılan yüksək şərait, onların təlim-tərbiyəsinə, sağlamlığına və qidalanmasına böyük diqqət göstərilməsi bir Qarabağ müharibəsi veteranı kimi mənə çox xoş təsir bağışlayır. Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycanda yaratdığı möhkəm nizam-intizam Sizin sayənizdə bu gün də mövcuddur. Cənab Prezident, ona görə də bu gün biz əsgər atalarının Sizə və dövlətimizə olan məhəbbəti yüksəkdir. Əminəm ki, yaxşı şəraitdə və güclü nizam-intizam altında xidmət edən əsgərlərimiz həm vətənimizi etibarlı qorumağa, həm də gələcəkdə Azərbaycan üçün layiqli vətəndaş olmağa qadirdirlər. Mən bununla fəxr edirəm. Allah hər zaman Sizə sevinc dolu günlər qismət eləsin!"

Tərtər rayonunun Kəngərli kəndinin sakinləri adından **Ədalət Nağıyev, İbadət Nağıyev, Vidadi İsmayılov, Bünyad İsmayılov, Nəriman Abbasov** və **Tofiq Zamanov** yazırlar: "Möhtərəm cənab Prezident, su həyat, su dirilik, su bol məhsul deməkdir. Düşmənlərimiz bizə həm də iqtisadi cəhətdən zərbə vurmaq üçün Sərsəngdən təsərrüfatlarımıza gələn suyun qarşısını kəsib qışda suyu buraxırlar, kənd təsərrüfatı məhsullarının becərmə dövründə isə əkinlərimizi suvarmağa imkan vermirlər. Ona görə suvarma dövründə çox çətinliklərlə üzləşirik. Bu çətinliklərin öhdəsindən isə Sizin sərəncamınızla yaradılan artezianların köməyi ilə gəlirik. İyunun 3-də rayonumuza səfərinizdən dərhal sonra sərəncamınızla rayonumuzun 18 yaşayış məntəqəsində 21 artezian quyusu qazılmağa başlanılıb. Bu artezianların biri də bizim Kəngərli kəndinin payına düşüb. Həmin artezianla 60 hektardan çox sahə suvarılacaq. Möhtərəm cənab Prezident, koronavirus pandemiyasına qarşı aparılan mübarizə dövründə bütün çətinliklərə baxmayaraq, bizim rayona səfər etdiyiniz, rayonumuzda 21 yeni artezian yaradılması ilə bağlı sərəncam imzaladığınız üçün Sizə kəndimizin sakinləri və fermerləri adından minnətdarlığımızı bildiririk. Fəxr edirik ki, bizim çətin məqamlarda güvənə bildiyimiz Sizin kimi Prezidentimiz var. Tanrı Sizi və ailənizi qorusun!"

Böyük Britaniyanın Edinburq şəhərindən dövlət başçısına məktub yazan **Fərid İbrahimov** qeyd edir: "Hörmətli cənab Prezident, hazırda koronavirus pandemiyasının yaratdığı vəziyyətin hər kəsə təsirsiz ötüşmədiyi məlumdur. Mən Böyük Britaniyada təhsil alan tələbələrdən biriyəm. Tədrisin müddəti yenicə bitmişdir. Bu müddət ərzində təqaüd verilməsi dayandırıldığından maddi cəhətdən sıxıntı çəkirdim. Maliyyə vəziyyətimin ağırlaşması ilə bağlı müraciət etmişdim. Səfirlik pandemiyanın yaratdığı işsizlik mühitini və yaşadığımız gərginliyi nəzərə alaraq dərhal dəstək göstərdi və məni çətinlikdən xilas etdi. Pandemiya dövründə dövlətimizin çətinə düşən vətəndaşların məsələlərinə çevik reaksiyası göz qabağındadır. Bu, Sizin liderliyinizin sayəsindədir, cənab Prezident. Buna görə bir gənc vətəndaş olaraq Sizə təşəkkür edirəm".

Lənkəran rayonunun Cil kəndindən **Faiq Şıxəlizadə:** "Hörmətli cənab Prezident, dünyanı ağuşuna almış bu pandemiya dönəmində Sizin göstərdiyiniz səyləri, vətəndaşlarımızın sağlamlığı, əhalinin sosial vəziyyətinin sabit saxlanılması istiqamətində atdığınız uğurlu addımları yüksək qiymətləndiririk. Karantin dövründə cəmiyyətin bütün sahələrinə, o cümlədən təhsilin davam etdirilməsi, şagirdlərin və müəllimlərin tədris prosesindən kənarda qalmaması istiqamətində verdiyiniz tapşırıqlara və həyata keçirdiyiniz çevik fəaliyyətə görə bir vətəndaş və bir təhsil işçisi kimi Sizə dərin təşəkkürümü bildirirəm. İnanırıq ki, xalqımız da pandemiya şəraitinin bütün qaydalarına əməl edəcək və biz dövlət olaraq bu ağır vəziyyətdən üzüağ çıxacağıq. Son dövrlərdə regionların sosial-iqtisadi inkişafı və korrupsiya ilə mübarizə sahəsində də görülən böyük işlərə görə Sizə dərin minnətdarlığımı bildirir və yorulmaz fəaliyyətlərinizdə yeni uğurlar arzulayıram".

# Milli Məclisdə içməli su təchizatı ilə bağlı məsələlər müzakirə olunub



İyulun 1-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində respublikada içməli və tullantı su təchizatı məsələlərinin müzakirəsinə həsr olunmuş görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşü Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov açıb. O bildirib ki, altıncı çağırış Milli Məclisin ilk iclasında proqram xarakterli çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev parlamentin icra orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməli olduğunu vurğulayıb. Həmin tövsiyədən çıxış edərək Azərbaycanda su çatışmazlığının yarandığı hazırkı dövrdə bu görüş Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə təşkil olunub.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov respublikada su təminatı məsələləri, görülən işlər və mövcud vəziyyət barədə ətraflı məlumat verib. "Azərsu" ASC-nin sədri su ilə bağlı məsələlərin geniş müzakirəyə çıxarılmasına şərait yaratdığı üçün Milli Məclisin rəhbərliyinə, Sədr Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Sədr qeyd edib ki, hazırda su təminatı məsələsi dünyanı təhdid edən əsas problemlərdən biridir. Qlobal iqlim dəyişiklikləri və quraqlıq dünyada su ehtiyatlarına ciddi təsir göstərir. Son illərdə yağıntıların azalması, orta illik temperaturun yüksəlməsi su ehtiyatlarının azalmasına, quraqlığa səbəb olur və bütün bunlar ölkəmizdə də əhalinin içməli su təchizatına, eyni zamanda, aqrar sektorun suvarma suyu ilə təminatına təsir göstərir: "Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir" fikrini irəli sürən dövlət başçısı son illər Bakı şəhəri və Abşeron yarımadası, respublikanın regionları, kəndlərin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı çoxsaylı sərəncamlar imzalayıb. Regional inkişaf proqramlarında əhalinin içməli su təminatının yaxşılaşdırılması mühüm vəzifə kimi qarşıya qoyulub. Görülən işlər əhalinin həyat şəraitini xeyli yaxşılaşdırıb. Bu ilin aprelində imzalanmış "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncama əsasən komissiya yaradılıb. Komissiya qısa zamanda çox böyük işlər görüb".

Komissiyada təmsil olunan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin qarşısında duran vəzifələr barədə danışan Qorxmaz Hüseynov Azərbaycanın şirin su ehtiyatları, onlardan istifadə vəziyyəti, son illər əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə Bakı şəhərində və regionlarda həyata keçirilən layihələrdən söz açıb.

O qeyd edib ki, 2010-2019-cu illərdə ölkəmizdə məhsuldarlığı saniyədə 19 kubmetrdən çox olan 44 məhsuldar su mənbəyi yaradılıb. Təkcə Abşeron yarımadasında həcmi 130 min kubmetrdən çox olan 16 su anbarı, 140 kilometr magistral su kəməri tikilib, 69 kilometr mövcud magistral kəmərlərin reabilitasiyası aparılıb, 2650 kilometr paylayıcı su şəbəkəsi, 4860 kilometr binadaxili xətlər çəkilib, 402 min ədəd su sayğacı quraşdırılıb.

2013-2019-cu illərdə 3350 binanın daxili su kommunikasiya xətləri yenilənib, zirzəmisi olan 6 min 53 binada tullantı su xətləri yenilənib, 3 min 55 binanın zirzəmisi təmir olunub. Suyun keyfiyyəti də ildən-ilə yaxşılaşdırılır və standartlara tam uyğunlaşdırılıb.

Eyni zamanda, regionlarda 52 şəhər və rayon mərkəzində işlərə başlanılıb ki, bunların 30-da içməli su və tullantı su şəbəkələrinin, 12-də içməli su şəbəkəsinin inşası yekunlaşıb. Hazırda 12 şəhərdə işlər davam etdirilir. Yalnız 2 şəhərdə - Bərdə və Balakəndə layihələrin icrasına başlanılmayıb. Ötən müddətdə 1000-dən çox kənd və qəsəbədə su layihələri icra olunub.

Məruzəsinin yekununda "Azərsu" ASC-nin sədri su çatışmazlığı və itkilərin səbəbləri barədə də danışıb. Bu sırada magistral kəmərlərin şəbəkə kimi istifadə edildiyini, sayğacdankənar istifadə hallarını, ictimai bulaqları, bağ və həyət evlərində yaşıllıqların suvarılması zamanı sudan israfçılıqla istifadə olunduğunu, tikinti normalarına cavab verməyən fərdi şəbəkələrin mövcudluğunu qeyd edib, qarşıda duran əsas hədəflərdən danışıb.

Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, deputatlar Asim Mollazadə, Nəsib Məhəməliyev, Sabir Rüstəmxanlı, Fatma Yıldırım, Məşhur Məmmədov, Rauf Əliyev, İltizam Yusifov, Naqif Həmzəyev fikirlərini bildiriblər. "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov deputatların suallarını cavablandırıb.

# 102 illik şərəf salnaməsi

## Daxili İşlər naziri, general-polkovnik Vilayət EYVAZOV:

## “Dövlətin və xalqın mənafeyinə, Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin fəaliyyət kursuna sədaqətli, peşəkar xidmət Azərbaycan Polisinin əsas vəzifə borcudur”

*Əvvəli 1-ci səh.*



Sözügedən sahədə digər dövlət strukturları kimi daxili işlər orqanları da ölkə rəhbərinin müəyyənləşdirdiyi strateji prinsiplər əsasında fəaliyyət göstərir. Bu müddətdə polisin işinin ilkin nəticələri barədə mənim rəyimə gəldikdə isə hesab edirəm ki, bunu ictimaiyyət və kütləvi informasiya vasitələri daha dolğun və obyektiv verə bilər. Çünki həmişə olduğu kimi, bu dövrdəki fəaliyyətimiz də sizlərin gözü önündə, geniş ictimai nəzarət altında həyata keçib. Sözsüz ki, xidmətimizdə müəyyən nöqsanlar var və onların aradan qaldırılması üçün müvafiq tədbirlər görürük. Ümumilikdə isə cənab Prezident Daxili İşlər Nazirliyinin, onun təşkilati strukturlarından olan polisin və Daxili Qoşunların fəaliyyətini yüksək qiymətləndirir ki, bu da bizim üçün ən böyük mükafatdır.

*- Cənab Nazir, bu prosesdə daxili işlər orqanlarının fədakarlığı, şəxsi heyətinin əzmkarlığı, gecəli-gündüzlü gərgin fəaliyyəti ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir, tam müsbət qarşılanır...*

- Nazirliyə vətəndaşlar tərəfindən göndərilən çoxsaylı məktublar, teleqramlar, eləcə də elektron ünvanımıza daxil olan mesajlar, xüsusən ölkə KİV-inin sağlam mövqeyi həyata keçirdiymiz tədbirlərin razılıqla qarşılandığını sübut edir. Bu ədalətli, obyektiv münasibətə və məhdudiyyət tədbirlərini anlayışla qarşılayıb dəstəklədiklərinə görə Daxili İşlər Nazirliyinin bütün şəxsi heyəti adından ölkə ictimaiyyətinə, media mənsublarına təşəkkürümüzü bildiririk.

Nazirlər Kabinetinin müvafiq qərarı ilə tətbiq edilən xüsusi karantin rejimi dövründə hərəkət məhdudiyyətlərini tənzimləyən qaydalara riayət olunmasına ölkə boyu nəzarətin həyata keçirilməsinə bütün şəxsi heyətimiz səfərbər olunub. Daxili işlər orqanlarının əməkdaşları, sıravisindən ali rəis heyətinədək hər biri mart ayından etibarən gücləndirilmiş iş variantında və bundan irəli gələn gərgin iş rejimində çalışır. Açıq deyək, həyatlarını bəzən infeksiyaya yoluxma risqi altına qoyur, paytaxtda və bölgələrdə, o cümlədən müvəqqəti postlarda məlum qaydaların təmini və qarşıya qoyulmuş xidməti tapşırıqların icrası üçün yorulmadan səy göstərirlər.

Digər tərəfdən, bildiyiniz kimi, hərəkət məhdudiyyətlərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Bu halların müəyyənləşməsi üçün yol-patrul, post-patrul xidmətlərinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları davamlı tədbirlər görürlər. Paytaxtda və sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunan digər inzibati ərazilərdə əhalinin sıx olduğu yerlər tam nəzarətə götürülüb.

Lakin xüsusi karantin rejiminin pozulması halları təəssüf ki, hələ də qeydə alınır. Yoxlamalar zamanı müvafiq icazə olmadan yaşayış yerlərini tərk edən, postlardan qanunsuz olaraq keçməyə cəhd göstərən, fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı tələbləri pozan insanlar, iaşə müəssisələri üçün elan edilən qaydalara riayət etməyən obyekt sahibləri, lüzumsuz yerə nəqliyyat vasitələrindən istifadə edən sürücülər və digər pozuntular aşkarlandıqda polis əməkdaşları tərəfindən həmin şəxslərə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək onlar məsuliyyətə cəlb olunurlar.

*- Şəxsən Siz pandemiyaya qarşı mübarizə tədbirlərində vətəndaşlarımızın iştirakını, onların bu prosesə münasibətini necə dəyərləndirirsiniz?*

- Vətəndaşlarımız adi və sərt karantin rejimləri üçün müəyyən edilmiş qaydalara bütövlükdə riayət edirlər. Əhalinin mütləq əksəriyyəti sosial izolyasiyanın saxlanılması, məhdudiyyətlərə və sanitar-gigiyenik şərtlərə əməl edilməsi, lüzum olmadan yaşayış yerinin tərk edilməməsi və bu kimi digər tələblərə əməl edir. Lakin onu da vurğulayım ki, vətəndaşlarımızın bir qismində şəxsi səhlənkarlıq, məsuliyyətsizlik hallarına rast gəlindi və tətbiq edilən inzibati cərimələr bu cür münasibətdən ortaya çıxan, eyni zamanda, ailələrinin, ətraflarının xəstəliyə yoluxmasına şərait yaradan acı həqiqətin nəticəsidir. Mən bu istiqamətdə də möhtərəm Prezident İlham Əliyevin və xanım Mehriban Əliyevanın davamlı çağırışlarını, şəxsi nümunələrini xüsusilə əhəmiyyətli sayıram. Bu örnəklər ictimaiyyətdə ciddi profilaktik təsir yaratdı, böyük maarifçilik dalğasına çevrildi.

Sərt karantin rejimi nə deməkdir? İnsanlar pandemiyaya yoluxmamaq üçün evində qalsın, ətraf mühitdən təcrid olunsun və beləliklə də, sağlamlığını təmin etsin. Əlbəttə ki, karantin ən effektiv mübarizə üsulu deyil, ancaq dünyada bundan daha yaxşı qoruyucu metod da tapılmayıb. Cərimələr də əslində, insanları bu qaydaları pozmaqdan çəkindirən səmərəli vasitədir. Yəni, cəriməyə məruz qalmamaq düşüncəsi tək bir insanı deyil, həm də onun yoluxdura biləcəyi digərlərini xilas edir.

Bu həqiqəti daxili işlər orqanlarının əməkdaşları aylardır ki, əhaliyə çatdırırlar. Bizim əsas işimiz cərimə yazmaq deyil və xatırladım ki, qaydaları ilk dəfə pozanların əksəriyyətinə heç cərimə də yazılmayıb, onlara xəbərdarlıq edilib.

Müxtəlif istiqamətlər üzrə monitorinqlər də aparırıq. Təsəvvürünüzə gətirin, ictimai nəqliyyatda hərəkət edən sərnişinlərin bəzən yarısı maskadan istifadə etmir. İaşə obyektlərində, açıq və qapalı məkanlarda sosial məsafə çox vaxt qorunmur. Son günlər yoluxmaya məruz qalan insanların sayının artması da məhz belə səhlənkarlıqların nəticəsi kimi meydana çıxır. Yaxud icazəsi olmadığına görə şəhəri tərk etmələrinə imkan verilməyən, ancaq postlardan yayınıb, ara torpaq yollarla avtomobillərdə hərəkət etməyə cəhd edən yüzlərlə şəxsi hamı gördü.

Sosial şəbəkələrdə, mesajlaşma tətbiqlərində əhali arasında xof, vahimə yaradan yalan məlumatlarla da hər gün rastlaşırıq. Daxili işlər orqanları bu kimi halları, - əslində o həm də cinayət faktlarıdır, - müəyyən edən müasir texnikaya malikdir və qeyd etdiyim faktlar dərhal müəyyənləşdirilərək lazımi hüquqi tədbirlər görülür.

Son günlər ölkə ictimaiyyəti, deputatlar, ziyalılar açıqlamalarında da karantin rejiminin tələblərinin pozulmasına, maska taxmamağa görə polisin daha sərt tədbirlər görməsini istəyirlər. Bu fikirlər, əlbəttə, təbii qarşılanır və polis bu işin öhdəsindən gəlir. Ancaq daxili işlər orqanlarının əməkdaşları hər bir məkanda, hər bir məhəllədə sutkalıq nəzarət həyata keçirə də bilməz... Bu nəzarət Prezidentimizin dediyi kimi, ümumxalq işinə çevrilməlidir.

Daxili İşlər naziri olaraq ictimaiyyətə müraciət edib bir daha bildirmək istərdim ki, bu cür neqativ hallara qarşı mübarizə yalnız rəsmi çərçivədə və polis müdaxiləsi ilə aparılmamalıdır. Biz bu ürək ağrıdan prosesdə ictimai qınağın, məzəmmətin və nəzarətin artırılmasını çox vacib sayırıq. Əgər vətəndaşlarımız öncə özləri qaydalara əməl edib, sonra da ətrafdakıların bu tələblərə riayət etməsinə çalışsalar, həmçinin tələblərə zidd davranışları müəyyənləşdirib çəkinmədən məlumat versələr bu prosesdə müsbətə doğru dönüş yaranar. Faktlar sübut edir ki, ictimai nəzarət bəzən elə rəsmi nəzarət qədər təsirli olur.

Ümumilikdə sərtləşdirilmiş karantin rejimində vətəndaşlarla polis əməkdaşları arasında əsasən səmimi, qarşılıqlı etimada əsaslanan, təəssübkeşlik ovqatlı münasibətlər mövcuddur və davam edir. Bu həmrəyliyi, işbirliyini yüksək qiymətləndirirəm və əminəm ki, əlaqələrimiz daha da möhkəmlənəcək.

*- Cənab Nazir, cinayətkarlığa qarşı mübarizədə vəziyyət necədir?*

- Azərbaycan cinayətkarlığa qarşı mübarizədə, asayişin və əmin-amanlığın qorunması sahəsində öncül dövlətlər sırasında yer alır. Respublikamız bu gün dünyanın təhlükəsiz ölkələrindən biri, sabitlik adası kimi tanınır. Vətəndaşlarımızın dinc həyatı etibarlı qorunur, özlərini güvənli hiss edirlər. Hesab edirəm ki, bu fakt son 17 ildə Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində əldə olunan ən mühüm uğurlardandır.

Son dövrlərin statistikası da bunu sübut edir.

2003-2017-ci illərdə 21 mindən artıq cinayətkar qrup və dəstə zərərsizləşdirilmiş, əllərdə qanunsuz saxlanılan 16 minə yaxın odlu silah yığılmış və onun tətbiqilə törədilən cinayətlərin sayı 1,3 dəfə azalmışdır.

Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunmuş, axtarışda olan 55 mindən artıq təqsirləndirilən şəxs tutulmuş, qanunsuz dövriyyədən 11 tona yaxın narkotik vasitə çıxarılmışdır. Azərbaycanda əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı bu gün də əksər Avropa dövlətləri ilə müqayisədə xeyli azdır.

Davos Forumunun son hesabatına əsasən, Azərbaycan mütəşəkkil cinayətkarlığa qarşı mübarizə indikatoru üzrə 141 ölkə arasında 18-ci, polis orqanlarına əhalinin etibarı göstəricisinə görə 30-cu yerə yüksəlib.

Göründüyü kimi, respublikanin hüquq mühafizə və xüsusi xidmət orqanlarının səylərinin vahid məqsəd üzərində cəmləşməsi sayəsində, cinayətkarlığa qarşı mübarizədə əhəmiyyətli nəticələr əldə edilir, bütün kütləvi tədbirlərdə asayiş və təhlükəsizlik yüksək səviyyədə qorunur. Hədəfimiz əldə olunmuş nəticələri daha da yaxşılaşdırmaqdır.

*- Cənab Nazir, son illərdə Prezident İlham Əliyev tərəfindən aparılan islahatlar dövlət strukturlarının fəaliyyətində də köklü dəyişikliklərə, mühüm yeniliklərə rəvac verib. Bu islahatlar dalğası Daxili İşlər Nazirliyində hansı nəticələrlə müşayiət olunub?*

- Son illər ölkəmizdə islahatlar yeni, daha dinamik mərhələyə qədəm qoyub. Təsadüfi deyil ki, Azərbaycan xarici reytinq göstəricilərinə görə dəfələrlə “ən islahatçı ölkə” elan edilib, bu sahədə fəaliyyətin səmərəliliyi və nəticələri beynəlxalq miqyasda təqdir olunub.

Prezidentin hər bir dövlət strukturuna konkret tələbi var. Fəaliyyət davamlı surətdə təkmilləşməli, müasirləşməli, yeni dövrün çağırışlarına uyğunlaşdırılmalıdır. İslahatların əsas məramı isə vətəndaş məmnunluğunu artırmaqdır.

Daxili İşlər Nazirliyində, eləcə də tabeliyindəki struktur qurumlarda aparılan islahatlar da miqyaslıdır. Nəticə baxımından isə fəaliyyətin effektivliyinin yüksəlməsinə xidmət edir və Dövlət Başçısının müvafiq tapşırıqları, təklifləri ümumi işimizə əhəmiyyətli töhfələr verir.

Həmçinin, ölkəmizdə aparılan geniş quruculuq işləri daxili işlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, infrastrukturunun müasirləşdirilməsi, maddi-texniki təminatının, şəxsi heyətin məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımların atılmasına əlverişli şərait yaradıb.

Bu gün polis minlərlə yeni nəqliyyat vasitəsi, qabaqcıl texnologiya və avadanlıqla təchiz edilmiş mobil dövlət qurumudur. Elektron xidmətlər, veb-saytlar, qaynar xətlər, “ASAN xidmət” mərkəzlərində fəaliyyət - vətəndaş məmnunluğunun təmin edilməsinə yönəlib. Bütövlükdə bu və digər innovasiyalar xidməti fəaliyyətin səmərəsini qat-qat artırıb.

*- Azərbaycan Polisinin 102-ci ildönümü ərəfəsində Sizinlə görüşürük. Elə Sizin Daxili İşlər naziri təyin olunmağınızdan da bir il ötür. Bu söhbətin Sizin həm də mətbuata verdiyiniz ilk geniş müsahibə olduğunu nəzərə alaraq, ötən birillik dövrlə bağlı təəssüratınızı və fəaliyyətinizdəki əsas hədəfləri oxucularla bölüşməyi xahiş edərdik...*

- Cənab Prezidentin, Ali Baş Komandanın tapşırıq və göstərişlərini icra etməyi, nazir kimi funksiyalarımı tam və yüksək səviyyədə həyata keçirməyi əsas hesab edirəm. Dövlət Başçısı mənə böyük etimad göstərib, bu etimadı doğrultmaq, qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək borcumuzdur.

Fəaliyyət hədəflərim barədə sual verdiniz. Ölkə rəhbərinin daxili işlər orqanları və mənim üçün müəyyən etdiyi başlıca hədəflər aydındır: daxili işlər orqanlarının qloballaşan dünyanın yeni çağırış və təhdidlərinə adekvat cavab verməyə hazır olması, cinayətkarlığa qarşı mübarizənin təkmilləşdirilməsi, kriminogen duruma nəzarətin gücləndirilməsi, ictimai sabitliyin davamlı olaraq möhkəmləndirilməsi, fəaliyyətimizlə vətəndaş məmnunluğunun artırılması, bütövlükdə cəmiyyətdə polisin nüfuzunun daha da yüksəldilməsi və daha peşəkar, qətiyyətli, günün tələblərinə cavab verən kadrların hazırlanması əsas hədəflərdəndir.

Peşə bayramımız ərəfəsində Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 26 əməkdaşımız dövlət mükafatlarına, 3 rəhbər vəzifəli şəxs ali xüsusi rütbəyə layiq görülüb. Xidməti fəaliyyətimizə verilən bu yüksək dəyərə görə bütün şəxsi heyət adından Dövlət Başçısına dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan Polisi Prezident, Ali Baş Komandan İlham Əliyevin inam və etimadını öz peşəkar xidməti ilə doğrultmaq üçün bundan sonra da var qüvvəsilə çalışacaq.

***Müsahibəni apardı:***
***İxtiyar HÜSEYNLİ***

# “Zəifləri qorumaq: həmrəyliyə və fəaliyyətə dinlərarası çağrı” mövzusunda vebinar iclas keçirilib



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə iyunun 30-da KAİCİİD Beynəlxalq Dialoq Mərkəzinin təşkil etdiyi “Zəifləri qorumaq: həmrəyliyə və fəaliyyətə dinlərarası çağrı” mövzusunda vebinar iclasında iştirak edib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, KAİCİİD Dialoq Mərkəzinin baş katibinin ali müşaviri, professor Məhəmməd Abu Nimerin moderatorluğu ilə keçən tədbirin gedişində bir sıra önəmli məsələlər, o cümlədən pandemiya dövründə yaranmış spesifik çətinliklərin cəmiyyətin ən həssas təbəqələrinin həyatında əks olunması və bu çətinliklərin dəf olunmasında dini icmaların görə biləcəyi işlər müzakirə olunub.

İngilis kilsəsinin Dinlərarası məsələlər üzrə məsləhətçisi Riçard Sudvort, Amerika Yəhudi Komitəsinin Dinlərarası məsələlər üzrə beynəlxalq direktoru Baş Ravvin David Rosen, Xristian-Müsəlman dialoqu üzrə Milli Komitənin baş katibi Mohammad Sammak, Shanti Ashram təşkilatının direktoru Kezevino Aram və başqaları vebinarda çıxış ediblər. Vurğulayıblar ki, dünya üçün mürəkkəb dövr kimi xarakterizə olunan hazırkı dövrdə risk qrupuna daxil olan, ən çox yardıma ehtiyacı olan təbəqələrin pandemiyanın sosial, iqtisadi təsirlərindən qorunması yönündə real işlər görülməlidir və bu baxımdan, dünyanın müxtəlif ölkələrində müxtəlif dini icmaların təcrübəsindən yararlanmaq zəruridir. Vebinarda təhsil sahəsində yaşanan çətinliklər, dünyanın heç də bütün məntəqələrində texniki vasitələrdən istifadə edərək distant təhsilin əlçatan olmaması, işsizliyin artması səbəbindən yoxsulluğun çoxalması, turizm imkanlarının məhdudlaşmasının iqtisadi fəsadları və digər bu kimi məqamlar gündəmdə olub.

Dünyanın nüfuzlu beynəlxalq hökumətlərarası təşkilatlarından olan KAİCİİD-in Direktorlar Şurasının üzvü Şeyxülislam Allahşükür Paşazadə videoiclasda çıxış edib. A.Paşazadə vebinar iştirakçılarına məlumat verib ki, Azərbaycan dövləti pandemiyanın ilk günlərindən ölkə daxilində cəmiyyətin ən müxtəlif təbəqələrinin, o cümlədən daha həssas cəmiyyət üzvlərinin ehtiyaclarını qarşılamaq üçün mümkün olan bütün tədbirləri həyata keçirir. Nazirlər Kabineti yanında Operativ Qərargah bu işləri yüksək səviyyədə dövlət nəzarəti altında reallaşdırır, lazımi addımları ardıcıl və situasiyaya uyğun tənzimləyir. Bu dövr ərzində dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsi ölkəmizdəki digər dini konfessiyalarla birlikdə COVID-19 bəlasına qarşı mübarizənin səmərəliliyini artıran bütün lazımi tədbirləri həyata keçirməkdədir. QMİ və digər dini icmalar Operativ Qərargahla yaxından, fəal əməkdaşlıq edərək dini ayin və ibadətlərə dair bütün təlimatları koordinasiyalı şəraitdə ümumi işin mənafeyinə uyğun tərzdə tənzimləyir. QMİ sədri dövlətdin münasibətlərinin yüksək səviyyəsinin göstəricisi olan bu məqamı bütün dünya üçün örnək nümunə kimi dəyərləndirib.

A.Paşazadə onu da diqqətə çatdırıb ki, yalnız Azərbaycanın Ermənistan işğalı altında olan 20 faiz ərazilərində pandemiya səbəbindən yaranmış vəziyyəti nəzarətdə saxlaya bilmirik və bu xəstəliyin yayılmasına səbəb olur.

Azərbaycan dövlətinin beynəlxalq müstəvidə insan həmrəyliyi nümayiş etdirərək 30-dan çox dövlətə humanitar yardım göstərdiyini, bu istiqamətdə işlərin davam etdirildiyini bildirib. Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidentinin hər zaman olduğu kimi qlobal təşəbbüslərini davam etdirərək pandemiya dövrünün əvvəlindən bir sıra platformalarda beynəlxalq əməkdaşlıq nümunəsi göstərdiyini, bu yaxınlarda isə BMT-nin Baş Assambleyasının COVID-19 problemi ilə bağlı xüsusi iclasının çağırılması barədə təşəbbüs irəli sürdüyünü diqqətə çatdırıb. Ermənistandan başqa bütün dövlətlərin razılıq verdiyi bu təşəbbüs heç şübhəsiz ki, dünya miqyasında pandemiyanın və onun fəsadlarının aradan qaldırılması yolunda əhəmiyyətli addım olacaq.

QMİ sədri rəhbərlik etdiyi Beynəlxalq Bakı Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi, MDB Müsəlmanları Məşvərət Şurası xətti ilə keçirdiyi onlayn iclaslar barədə, habelə bu ilin iyul ayında Qafqaz Xalqları Ali dini Şurasının üzvləri ilə bu mövzuda baş tutacaq videokonfrans barədə məlumat verib. QMİ sədri pandemiya dövründə Yer üzündə münaqişələrin dayandırılmasını, qarşıdurma və nifrət çağırışlarının qarşısının alınmasının, humanitar yardımlaşma əvəzində siyasi məqsədlərlə sanksiya tətbiqinin aradan qaldırılmasının xüsusən zəruri olduğunu vurğulayıb.

Şeyxülislam Allahşükür Paşazadənin çıxışı və verdiyi təkliflər moderator və vebinar iştirakçıları tərəfindən dəstəklənib.

Daha sonra vebinarın ünvanına daxil olmuş suallar cavablandırılıb.

# Dövlət proqramı çərçivəsində xaricdə doktorantura təhsili və ikili diplom proqramlarının icrası məsələləri müzakirə edilib

İyulun 1-də Təhsil Nazirliyində onlayn mətbuat konfransı keçirilib. Konfransın mövzusu “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində xaricdə doktorantura təhsili və ikili diplom proqramlarının icrasına həsr olunub.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, mətbuat konfransında xaricdə doktorantura təhsili üzrə cari vəziyyətə toxunulub. Dövlət proqramı çərçivəsində 2020-ci ilin yaz semestri üçün xaricdə doktorantura təhsili üzrə müraciət edən namizədlərin müsabiqə nəticələri açıqlanıb. Ümumilikdə elektron ərizə sistemi vasitəsilə müraciətini təsdiq edən 67 nəfərdən 45-i müsahibə mərhələsinə buraxılıb. Müsabiqə nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı müvafiq proqram çərçivəsində 11 ölkənin 22 nüfuzlu ali təhsil müəssisəsində doktorantura səviyyəsində təhsil almaq hüququ qazanıb. Onlar təhsillərini başa vurduqdan sonra ölkəmizə qayıdaraq müqavilə tərəfdaşı olan yerli ali təhsil müəssisəsində pedaqoji fəaliyyətə cəlb ediləcəklər. Bu prosesdə 9 yerli ali təhsil müəssisəsi tərəfdaş kimi iştirak edir.

Qeyd edilib ki, 2020-ci ilin payız semestrindən xaricdə doktorantura təhsili üçün növbəti sənəd qəbulu açıq elan edilib və son müraciət tarixi avqustun 2-dir.

Konfrans çərçivəsində media nümayəndələrinə, həmçinin ikili diplom proqramlarının icrasına dair cari vəziyyətlə bağlı məlumat verilib. Bildirilib ki, Azərbaycanda ali təhsil standartlarının müasirləşdirilməsi məqsədilə ilkin mərhələdə dövlət proqramı çərçivəsində beş beynəlxalq ikili diplom proqramının təsis olunması nəzərdə tutulur. Bu məqsədlə aşağıda göstərilən dörd ikili diplom proqramından ilk ikisi üzrə işlər yekunlaşdırılıb, digərləri üzrə isə yekunlaşmaq üzrədir. Həmin proqramlar üzrə növbəti tədris ili üçün tələbə qəbulu həyata keçiriləcək:

- ABŞ-ın Corc Vaşinqton Universiteti (CVU) ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) “Təhsil” ixtisası istiqaməti üzrə magistratura səviyyəsində beynəlxalq ikili diplom proqramı;
- ABŞ-ın Corc Vaşinqton Universiteti (CVU) ilə ADA Universitetinin “İnformasiya texnologiyaları” ixtisası istiqaməti üzrə magistratura səviyyəsində beynəlxalq ikili diplom proqramı;
- Koreya Respublikasının “INHA” ali təhsil müəssisəsi ilə Bakı Mühəndislik Universitetinin (BMU) “Mühəndislik” ixtisasları istiqaməti üzrə bakalavriat səviyyəsində beynəlxalq ikili diplom proqramı;
- Türkiyənin Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universitetinin “Aqrar elmlər” ixtisasları istiqaməti üzrə bakalavriat səviyyəsində beynəlxalq ikili diplom proqramı.

Media nümayəndələrinin diqqətinə çatdırılıb ki, ADPU və CVU-nin “Təhsil” ixtisası üzrə magistratura proqramına növbəti sənəd qəbulu barədə elan verilib. 2020-ci il fevralın 23-də keçirilən magistraturaya qəbul imtahanında iştirak etməyən cari və əvvəlki illərin məzunları üçün Dövlət İmtahan Mərkəzi tərəfindən iyul ayı ərzində ayrıca imtahan təşkil ediləcək. İmtahanda bakalavriat səviyyəsinin “Təhsil”, “Humanitar və sosial”, “İqtisadiyyat və idarəetmə”, həmçinin “Təbiət” ixtisasları qruplarında yer alan ixtisaslardan birini bitirən şəxslərin iştirakına icazə verilib.

Daha sonra UFAZ-da ilk dəfə magistratura səviyyəsi üzrə keçirilən qəbul imtahanlarının nəticələrindən söz açılıb. Bildirilib ki, imtahanda uğurlu nəticə əldə edən 80 nəfər 2020-2021-ci tədris ili üçün bu ali təhsil müəssisəsinin magistratura səviyyəsində ödənişsiz əsaslarla təhsil almaq hüququ əldə edib.

Sonda media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində xaricdə doktorantura təhsili ilə bağlı I müsabiqənin nəticələrinə dair geniş statistika və göstərilən ikili diplom proqramları haqqında ətraflı məlumatla Təhsil Nazirliyinin saytında yerləşdirilmiş müvafiq keçidlər vasitəsilə tanış olmaq mümkündür.

# Polis Günü ərəfəsində yeni inşa edilən binaların açılışı olub

Azərbaycan Polisi Günü ərəfəsində - iyulun 1-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Daxili İşlər Nazirliyinin (DİN) müxtəlif xidmət sahələri üçün inşa edilmiş daha 3 yeni inzibati binanın açılışı olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Dövlət Yol Polisi İdarəsinin Diaqnostika Mərkəzinin, Nərimanov Rayon Mühafizə İdarəsinin və Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis Bölməsi üçün tikilmiş inzibati binaların açılışında general-polkovnik Vilayət Eyvazova məlumat verilib ki, binaların hər birində müasir standartlara uyğun zəruri avadanlıq, inventar, mərkəzi havalandırma, istilik sistemləri, qazanxana, rabitə-kommunikasiya xətləri quraşdırılıb, ərazilərində abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

Tədbir iştirakçıları yeni binaların növbətçi hissələrinə, xüsusi avadanlıq və kompüter sistemi ilə təchiz edilmiş xidməti otaqlara baxıb, Ümummilli Lider Heydər Əliyevin dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi sahəsindəki yorulmaz fəaliyyətini, Prezident İlham Əliyevin daxili işlər orqanlarına xüsusi diqqət və qayğısını əks etdirən fotostendlərlə tanış olublar.

Vətəndaşlarımızın rahatlığına, onların nəqliyyat vasitələrinin vaxtında və keyfiyyətli müayinə edilməsinə şərait yaradacaq Qaradağ rayonu ərazisində inşa edilmiş Baş Dövlət Yol Polisi İdarəsinin Diaqnostika Mərkəzində minik avtomobilləri üçün 6, yük avtomobilləri üçün isə 2 müayinə xətləri yaradılıb. Müayinə xətləri yüksək dəqiqliklə diaqnostik xidmətlər aparılmasına imkan verən zəruri avadanlıqlarla təchiz olunub, avtoyuma və təmir boksları ilə təmin edilib.

Daxili İşlər naziri görülən işləri yüksək qiymətləndirib, şəxsi heyətin normal fəaliyyət göstərməsi üçün yaradılan şəraitdən məmnunluğunu bildirib, konkret tapşırıq və tövsiyələrini verib. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquqi-demokratik, sosial-iqtisadi islahatlar, fəal hüquq mühafizə siyasəti daxili işlər orqanlarının da fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, maddi-texniki təminatının, şəxsi heyətin məişət və xidməti iş şəraitinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımların atılmasına əlverişli şərait yaradıb.

General-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, şəxsi heyət dövlət başçımızın daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya bundan sonra da əməli işlə cavab verəcək, sabitliyin, əmin-amanlığın, ictimai təhlükəsizliyin nümunəvi qorunması sahəsində qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən yüksək səviyyədə və məsuliyyətlə gələcək.

# Prezident nümunəsi və mənəvi məsuliyyətimiz

Əvvəli 1-ci səh.

Dövlət başçısının pandemiya dövrünün tələblərinə bu qədər ciddi surətdə və yüksək səviyyədə əməl etmək nümunəsi göstərməsi hər bir Azərbaycan vətəndaşı üçün ibrətamiz dərsdir.



Prezident İlham Əliyevin koronavirusla mübarizə dövründə ən müxtəlif tədbirlərdə bu qlobal bəla ilə mübarizə üçün Azərbaycan xalqına etdiyi müraciətlər, irəli sürdüyü tələblər, verdiyi tövsiyələr koronavirusla mübarizə dövrünün dövlət səviyyəsində həyata keçirilən böyük maarifçilik işi kimi yüksək qiymətə malikdir. Bunlar dövlətinə və ölkəsinə ürəkdən bağlı olan görkəmli bir dövlət xadiminin doğma xalqını ehtimal oluna biləcək bəlalardan xilas etmək, vətəndaşların sağlamlığını qorumaq, respublikamızın normal həyat ahəngini təmin etmək baxımından atdığı böyük tarixi addımlar kimi xüsusi əhəmiyyətə malikdir. Bu, həm də koronavirusla mübarizə dövrünün maarifçilik işinin İlham Əliyev modelidir.

Dünya ölkələri, o cümlədən də Azərbaycan üçün koronovirusla mübarizənin çətin imtahanlarının yaşatdığı indiki məsuliyyətli günlərdə Prezident İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasət, dövlət başçısı kimi göstərdiyi şəxsi nümunə hər bir vətəndaş üçün ibrətamiz bir örnək olmaqla bərabər, həm də ciddi bir çağırışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi böyük siyasəti ürəkdən dəstəkləməklə bərabər, həm də dövlət rəhbərimizin çağırışlarına əməl etmək hər birimizin vətəndaşlıq borcudur. Bu, həmişə olduğu kimi, koronavirusla mübarizə dövründə də Prezident-Xalq birliyinə növbəti ehtiramımızın və şəxsi töhfəmizin ifadəsi olacaqdır. Prezident İlham Əliyevin dünyada və ölkəmizdə göstərdiyi parlaq nümunə və Azərbaycan xalqının mənəvi məsuliyyəti koronavirusla mübarizədən qalib çıxmağın real düsturudur.

*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın birinci vitse-prezidenti,*
*Milli Məclisin deputatı, akademik*

# Gənclər və İdman naziri bölgələrdən olan yeniyetmə və gənclərlə onlayn görüş keçirib

Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov iyulun 1-də İsmayıllı, Cəbrayıl, Ağdam, Qəbələ, Şəmkir, Mingəçevir, Bərdə, Quba, Şamaxı, Lənkaran, Ağcabədi, Siyəzən, Masallı, Gəncə, Göyçay, Lerik, Şəki və Sabirabad şəhər və rayonlarından olan yeniyetmə və gənclərlə onlayn görüşü keçirib.





Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşün əsas məqsədi Azərbaycanın müxtəlif bölgələrində yaşayan, idmanla məşğul olan uğurlu gənclərin daim dövlətin diqqət mərkəzində olduqlarını göstərməklə yanaşı, onlarda idmana, təhsilə marağı daha da artırmaq, karantin dönəmində evdə qaldıqları müddətdə idmandan uzaq düşməmələrinə dəstək olmaqdır.

Nazir A.Rəhimov yeniyetmələrlə görüşdə bildirib: "Heç bir şərait sizinlə ünsiyyətə mane ola bilməz. Bu gün müxtəlif beynəlxalq yarışlarda Azərbaycanın bayrağını zirvələrə ucaldan müxtəlif idman növləri üzrə milli yığma komandaların üzvləri üçün qapalı şəraitdə məşqlərini davam etdirmələri məqsədilə hər cür şərait yaradılıb. Amma əfsuslar olsun ki, yeniyetmələr, gənclər bu gün zallara, idman qurğularına gedib məşq edə bilmirlər. Bu sizin diqqətdən uzaq olmanız demək deyil. Bu gün mən sizi dinləmək, asudə vaxtınızı necə keçirdiyinizi, idmanla necə məşğul olduğunuzu bilmək istəyirəm".

Hər bir gənclə ayrı-ayrılıqda söhbət etdikdən sonra nazir uşaq, yeniyetmə və gənclərin arzu və istəklərini dinləyib.

Görüş iştirakçıları diqqətinə görə nazirə təşəkkür edib, qazandıqları uğurlar, təmsil etdikləri bölgələrdə idmanın inkişafı, onları narahat edən məsələlərdən danışıblar.

Nazir karantin rejimi başa çatdıqdan sonra görüş iştirakçılarını nazirliyə dəvət edib.

# Azərbaycana gətirilən fərdi qoruyucu vasitələr bu gündən etibarən pandemiya ilə mübarizəyə ayrılmış tibb müəssisələrinə paylanılacaq

Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən (ÜST) həyata keçirilən "Sağlamlıq üçün həmrəylik təşəbbüsü" layihəsi çərçivəsində Azərbaycandakı tibb işçilərinə COVID-19 pandemiyası ilə effektiv və təhlükəsiz mübarizə aparmaqda kömək etmək məqsədilə respirator maska, qoruyucu eynək, şəffaf maska və qoruyucu kombinezonlar ölkəyə gətirilib.



Ölkəyə gətirilən 168 min ədəd fərdi qoruyucu vasitənin 10 mini şəffaf maska, 10 mini qoruyucu eynək, 8 mini qoruyucu kombinezon və 140 mini respirator maskadır. Bu virusla ön cəbhədə mübarizə aparan tibb işçilərinin təhlükəsizliyi üçün göndərilən bütün avadanlıqların keyfiyyət və təhlükəsizlik standartlarına cavab verməsi yoxlanışdan keçirilib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas AZƏRTAC-a bildirib ki, ikiillik layihənin birinci hissəsində səhiyyə sisteminin gücləndirilməsinə yardım etmək nəzərdə tutulub: "Bundan sonra da ölkəyə fərdi qoruyucu vasitələr gətiriləcək. Layihənin ikinci hissəsi səhiyyə sisteminin potensialının artırılmasına yönələcək. Bu, ümumi qlobal çağırışdır. Bu yardım Şərq Tərəfdaşlığının digər ölkələrinə də göstərilir. Növbəti iki ildə də həmin yardımlar davam edəcək. Lakin bilmək lazımdır ki, virusla mübarizə üçün hər kəs öz davranışına cavabdeh olmalıdır. Biz gərək məsuliyyətli davranaq ki, onunla düzgün mübarizə aparaq və sonda qalib ayrılaq. Aİ bir çox sahələrdə Azərbaycana yardım edir. Budəfəki yardım isə səhiyyə ilə bağlıdır".

ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancının sözlərinə görə, iki il davam edəcək layihə çərçivəsində həm ölkəyə qoruyucu vasitələr gətiriləcək, həm də Azərbaycan hökuməti ilə texniki cəhətdən əməkdaşlıq olunacaq: "Pandemiya ilə mübarizənin ön cəbhəsində həkimlər və tibb işçiləri yer alırlar. Fərdi qoruyucu vasitələr onların virusdan qorunması üçün önəmlidir. Sadəcə, maska taxmaq deyil, onu düzgün və yerində taxmaq da vacibdir. Bununla bağlı təlimlər keçirilir. Həmin təlimlər yenə də davam etdiriləcək", - deyə H.Harmancı diqqətə çatdırıb.

Qeyd edək ki, həmin fərdi qoruyucu vasitələr bu gündən etibarən pandemiya ilə mübarizəyə ayrılmış tibb müəssisələrinə paylanılacaq.

# Xeyirxahlıq, həmrəylik və vətənə xidmət missiyasının daşıyıcısı



**Ulu Öndər Heydər Əliyevin yaratdığı, bu gün isə İlham Əliyevin daha da inkişaf etdirdiyi Azərbaycan öz tarixinin sözün bütün mənalarında parlaq dövrünü yaşayır. Ölkədə həyata keçirilən siyasətin bütün sahələrin yüksəlişinə yol açması yaşadığımız zamanın ən böyük reallığıdır. Bu gün hər birimiz haqlı olaraq söz sahibi olan, imzasını imzalar arasına yazdıran, qətiyyətli və müstəqil dövlətimizlə fəxr edirik.**

Eyni zamanda bu tarixi reallıq bizlərin hər birini dövlətimizin qüdrətlənməsi naminə vətəndaşlıq borcumuzu yerinə yetirməyə, məsuliyyətli olmağa, ölkə rəhbərinin siyasi kursuna dəstək verməyə səsləyir. Bu baxımdan hər zaman milli təəssübkeşlik mövqeyindən çıxış edən, dövlətə və xalqa xidmətin möhtəşəm nümunələrini yaradan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ictimai fəaliyyəti hər birimiz üçün böyük örnəkdir.

Leyla Əliyeva gəncdir. Amma onun gördüyü işlər o qədər çoxşaxəlidir ki, danışmaqla bitməz. Və bütün bunların sayəsində ortaya qoyulan fəaliyyət hər birimizdə haqlı olaraq həm də qürur və fəxarət hissi yaradır. Heydər Əliyev Fondunun vitse-prezidenti və Rusiya nümayəndəliyinin rəhbəri, İslam Konfransı Təşkilatı Gənclər Forumunun, mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri, IDEA-nın təsisçisi, "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının təşəbbüskarı, "Baku" jurnalının baş redaktoru kimi Leyla Əliyevanın fəaliyyətinin əsas məramı xeyirxahlıq, həmrəylik, dövlətimizə və xalqımıza şərəfli xidmət missiyasıdır.

Ümumiyyətlə, Leyla Əliyevanın ictimai fəaliyyəti barədə danışarkən öncə onu qeyd etməliyik ki, Heydər Əliyev Fondunun vitse-prezidentini biz daim valideyn hüququndan məhrum olan, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların, yaşlı insanların, əlillərin əhatəsində görürük. Ulu Öndər Heydər Əliyev irsini yaşadan fondun təmsilçisi kimi Leyla Əliyeva xeyriyyəçiliyi, əl tutmağı, müxtəlif humanitar və sosial aksiyalar keçirməyi öz fəaliyyətinin prioritet istiqamətlərindən biri hesab edir. Elə bir bayram yoxdur ki, Leyla Əliyeva onlara baş çəkməsin, əlamətdar günləri onlarla birgə qeyd etməsin. Bu mənada Leyla Əliyeva barədə danışarkən ilk yada düşən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva kimi, onun da insanlara təmənnasız yaxşılığı, qayğısı, mərhəməti, daim nəyəsə ehtiyacları olanların yanında olması, diqqətini əhalinin sosial baxımdan həssas təbəqələrinə yönəltməsidir.

Məhz bu cür yüksək insani keyfiyyətlər xalqımızın mental və milli-mənəvi dəyərlərindən irəli gəlir ki, Leyla Əliyeva bu dəyərləri layiqincə daşıdığını əməlləri ilə sübuta yetirir.

Heydər Əliyev Fondunun vitse-prezidenti və İslam Konfransı Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi kimi Leyla Əliyevanın fəaliyyətinin bir istiqaməti də Ermənistanın işğalçılıq və terrorçuluq siyasətinin ifşa edilməsi, əsil həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasıdır. Bu baxımdan Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və elə özünün uğurlu fəaliyyəti nəticəsində İslam Konfransı Təşkilatından siyasi dəstək alan "Xocalıya ədalət!" kampaniyası Xocalı faciəsinə beynəlxalq səviyyədə hüquqi-siyasi qiymətin verilməsi, erməni yalanlarının ifşası istiqamətində olduqca uğurlu layihələrdən biridir.

Leyla Əliyevanın rəhbəri olduğu Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin fəaliyyəti isə xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və diaspor siyasətinin həyata keçirilməsi baxımından son illərin ən uğurlu nümunəsidir. 2009-cu ildə Moskvada Leyla Əliyevanın təşəbbüsü ilə təsis edilən RAGB-nin yaradılması qonşu ölkədə yaşayan azərbaycanlı gənclərin təşkilatlanmasında yeni mərhələnin başlanğıcı idi. Reallıq göstərir ki, təşkilat Rusiyada yaşayan, təhsil alan azərbaycanlı gənclərin bu ölkənin ictimai-siyasi həyatında fəal iştirakına, Rusiya cəmiyyətinə daha sıx inteqrasiyasına layiqli töhfələr verir. Azərbaycan həqiqətlərini də Rusiya ictimaiyyətinə layiqincə çatdıran təşkilat, eyni zamanda milli mədəniyyətimizin təbliğatçısıdır.

Məhz bu işlərə, xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində göstərdiyi xidmətlərə görə Leyla xanım Əliyeva Azərbaycan Prezidentinin sərəncamı əsasında "Tərəqqi" medalı ilə təltif edilib. Bununla yanaşı, humanitar aksiyalarda fəal iştirakına görə "Key to life" fəxri mükafatı, BMT-nin sertifikatı və xüsusi vəsiqəsi, "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" mükafatı, "Ekoloji Mühitin Qorunmasına Görə" xüsusi Beynəlxalq Şərəf Mükafatı, Rusiyanın III dərəcəli "Knyaginya Olqa" ordeni, "Volqoqrad vilayəti qarşısında xidmətlərə görə" medalı, Vladimir Putin tərəfindən verilən "Puşkin" medalı, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun "Xidmətlərə görə" medalı Leyla Əliyevanın çoxşaxəli və uğurlu fəaliyyətini təcəssüm etdirən nümunələrdir. Bütün bunlar həm də Leyla Əliyevanın timsalında Azərbaycan dövlətinin uğurlarıdır.

Aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılması, sağlam ərzaq sistemlərinin yaradılması kimi məqsədlərə nail olunmasına verdiyi töhfəyə görə 2015-ci ilin mayında BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Xoşməramlı səfiri adına layiq görülməsi isə Leyla Əliyevanın fəaliyyətinin dünyanın ən ali təşkilatı səviyyəsində qiymətləndirilməsinin parlaq göstəricisidir.

Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci ildən fəaliyyətə başlayan IDEA İctimai Birliyinin məqsədi yaşıllıqların çoxaldılması, dövlətimizin ekoloji siyasətinə dəstək verməkdir. Yarandığı gündən bəri IDEA Azərbaycanda yaşıllıqların qorunması və genişləndirilməsi üzrə bir çox misli görünməmiş layihələrə imza atıb. Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Cavan ruh üçün cavan ağac", "Ümumrespublika yaşıllaşdırma" marafonu, "Hər kağızı bir yarpağa dəyişək", "Ağacların kəsilməsinə yox!", "Ağac əkək, qoruyaq, yaşadaq", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə 100 min ağac" və digər layihələr çərçivəsində könüllülərin dəstəyi ilə ölkə ərazisində milyonlarla ağac əkilib, yaşıllıq zolaqları salınıb və yüzlərlə qanunsuz ağac kəsintisi cəhdinin qarşısı alınıb.

Leyla Əliyevanın bir xüsusiyyəti də zövqləri fəth edən, dərin məna daşıyan şeirlər yazmasıdır. Onun bu yaradıcılığı dünyada da tanınır. Şeirləri xarici dillərə tərcümə edilərək digər xalqlara da təqdim olunur. Həmin şeirlərdən ibarət bir neçə nəfis tərtibatda kitablar işıq üzü görüb. Şeirlər həm də sosial mediada işıqlandırılır və ictimaiyyət bunları maraqla izləyir. Bir çox şeirlərə musiqilər bəstələnib, mahnılar ərsəyə gətirilib və tanınmış müğənnilərin ifasında səsləndirilib. Yaradacılığa yaxın bir insan kimi həmin şeirlərə bəstələnən səkkiz mahnı da mənim qismətimə düşüb. Bunlarla yanaşı, Leyla xanımın ərsəyə gətirdiyi rəsm əsərləri bir çox xarici ölkələrin tanınmış sərgilərində nümayiş etdirilib.

Qeyd etdiyim kimi, Leyla Əliyevanın fəaliyyəti o qədər əhatəlidir ki, bir yazıda onların hamısından hərtərəfli bəhs etmək mümkünsüzdür. Lakin Leyla Əliyeva bunlarla kifayətlənmək fikrində deyil və biz ildən-ilə onun yüksək işgüzarlığı, dərin təşkilatçılığı, idarəçlik qabiliyyəti ilə dövlətimizin milli maraqlarına, ölkə rəhbərliyinin sosial siyasətinin daha böyük uğur qazanmasına xidmət edən yeni təşəbbüslərinin, layihələrinin şahidi oluruq. Bütün bunlar, o cümlədən yüksək mənəvi keyfiyyətləri Leyla Əliyevanın xeyirxahlıq, həmrəylik və vətənə xidmət missiyasının layiqli daşıyıcısı olduğunu göstərir. Hər birimiz həqiqətən nümunə olan bu yolda Leyla Əliyevaya yeni uğurlar arzu edirik.

*Novruzəli ASLANOV,*
*Milli Məclisin deputatı,*
*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti*

# Yollarımız daha rahat olacaq

## Bu istiqamətdə həyata keçirilən yeni infrastruktur layihələri əhalinin sosial problemlərinin həllinə dəstək verir

Koronavirus pandemiyası hələ davam etsə də, ölkəmizdə infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində işlər öz axarı ilə gedir. Bu, yeni yolların çəkilməsində və köhnələrin əsaslı təmirində aydın görünür.



Son aylar onlarca yeni yol istifadəyə verilib. Prezident İlham Əliyevin bu yolların əksəriyyətinin açılışında iştirak etməsi bir daha onların nə qədər önəmli olduğunu göstərir.

Yaşadığımız bu çətin və sınaq dolu vaxtda yolların əhəmiyyəti bir qədər də artır. Xüsusilə ərzaq məhsullarının və digər yüklərin daşınmasında yolların rahat olması çox vacibdir. Bu, istər kənd, bölgə və şəhərlərimiz arasındakı, istərsə də Azərbaycanı digər ölkələrlə bağlayan yollara aiddir.

Yeni yollardan biri də bu il iyunun 3-də Prezident İlham Əliyevin iştirakı ilə yenidənqurmadan sonra istifadəyə verilən Tərtər rayonundakı Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yoludur. Uzunluğu 21,5 kilometr olan bu yol 6 min 800 nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirir. Dördüncü texniki dərəcəli yolun hərəkət hissəsinin eninin 6 metr, hərəkət zolaqlarının sayının 2 olması, yolboyu avtobus dayanacaqlarının, suötürücü boruların, yol nişanlarının və göstərici lövhələrin quraşdırılması, cizgi xətlərinin çəkilməsi müasir bir infrastruktur layihəsinin uğurla başa çatdığını təsdiqləyir.

İyunun 22-də isə dövlət başçısı Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak edib.

Fərqli görkəmə malik, müasir texnologiyalar əsasında inşa olunan bu keçid paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsidir. Yeni piyada keçidi Heydər Əliyev Parkının yaxınlığında yerləşir. 2000-ci ildə salınan və həmin il açılışında Ulu Öndər Heydər Əliyevin iştirak etdiyi bu park paytaxt sakinlərinin sevimli istirahət məkanlarındandır.

Keçidin istifadəyə verilməsi piyadaların təhlükəsizliyinə xidmət edir. Belə ki, indiyə qədər onlar hər gün, xüsusilə axşam və səhər pik saatlarında yolu keçməkdə çətinlik çəkirdilər. Bununla yanaşı, nəqliyyat vasitələrinin hərəkəti üçün də problemlər yaranırdı. Beləliklə, indi artıq bu ərazidə piyadalar təhlükəsiz hərəkət edəcək, avtomobillər isə tıxaca düşməyəcək.

Qeyd edək ki, son illər avtomobil yollarında hərəkətin intensiv olduğu ərazilərdə yeraltı və yerüstü piyada keçidlərinin inşasına xüsusi diqqət yetirilir. 2018-2019-cu illərdə Bakıda və şəhərətrafı yollarda, həmçinin magistrallarda 7 yerüstü və yeraltı piyada keçidi istifadəyə verilib. 2020-ci ilin əvvəlindən indiyədək paytaxtda Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsində yeraltı piyada keçidi, Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində və Neapol küçəsində yerüstü piyada keçidləri inşa olunub. Azadlıq prospekti, Qala-Pirallahı, Mərdəkan-Buzovna, Bakı-Sumqayıt yollarında və digər ərazilərdə piyada keçidlərinin inşası yekunlaşmaq üzrədir. Daha bir neçə yerdə bu cür qurğuların tikintisi davam etdirilir.

Hazırda bilavasitə yol tikintisində də yeniliklər çoxdur. Məsələn, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrliyində, Bakı Beynəlxalq Avtovağzal Kompleksi ilə metronun "Avtovağzal" stansiyası arasındakı ərazidə əsas yolun hərəkət hissəsi genişləndirilərək zolaqların sayı 4-ə çatdırılıb. Paytaxtın şimal girişində xüsusən günün pik saatlarında yaşanan tıxacların aradan qaldırılması üçün icra edilən bu layihə çərçivəsində "20 Yanvar" dairəsində yolun hərəkət hissəsi 10 metrə qədər, magistral yol Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından keçən hissədə hər iki istiqamət üzrə bir hərəkət zolağı enində genişləndirilib.

Son dövrdə Prezident İlham Əliyev yol tikintisi və təmiri ilə bağlı daha neçə-neçə sərəncam imzalayıb. Həmin sənədlərdən biri 24 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Gəncə-Kəlbəcər-Laçın (14 km)-Aşıqlı-Keşkü-Üçbulaq-Üçtəpə-Firuzabad avtomobil yolunun tikintisinə aiddir. Bu məqsədlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitdən 9,6 milyon manat ayrılması barədə sərəncam verilib.

Dövlət başçısının daha bir sərəncamı ilə 6 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Yuxarı Noxudlu-Aşağı Noxudlu-Xurşud-Aşağı Kürkəndi avtomobil yolunun tikintisi həyata keçiriləcək. Bunun üçün 5,6 milyon manat vəsaitin xərclənməsi nəzərdə tutulur.

Prezident Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (4 km)-Şahnəzərli avtomobil yolunun tikintisi üçün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 900 min manat vəsaitin ayrılması barədə də sərəncam verib.

Hazırda paytaxtın Bakı şəhər Binəqədi rayonunun Biləcəri, M.Ə.Rəsulzadə və Xocəsən qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işləri də davam etdirilir. Bu məqsədlə Prezidentin sərəncamına əsasən 2,85 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Dövlət başçısı dəfələrlə vurğulayıb ki, yaranmış vəziyyətə baxmayaraq infrastruktur layihələri ixtisar edilməyəcək. Yol tikintisində layihələrin ardıcıllıqla icra edilməsi bunu bir daha təsdiqləyir. Bu layihələr xüsusilə indiki dövrdə əhalinin sosial problemlərinin həllinə böyük dəstək verir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Koronavirusla mübarizə milli təhlükəsizlik məsələsidir

Əvvəli 1-ci səh.





Prezident regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icra edilməsində iki faktora xüsusi diqqət yetirir. Dövlət başçısının tapşırığı odur ki, iqtisadi və sosial layihələr paralel şəkildə icra edilsin. Biz bunun Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iyunun 24-də Gəncə şəhərinə səfəri zamanı da şahidi olduq.

Dövlət başçısı Gəncədə yeni tikilən "NB Satınalma və Ticarət" MMC-nin süni mərmər və qranit istehsalı zavodunun açılışında iştirak etdi. Prezidentə məlumat verildi ki, yeni müəssisədə süni mərmər, keramoqranit, yeni yer və divar üzlükləri, metlaq və quru inşaat qarışıqları istehsal ediləcək. Həmçinin illik istehsal gücü 40 min ton astar, eləcə də 20 min ton üzlük olan tikinti materialları istehsalı zavodu tikilib ki, hazırda burada avadanlıqların quraşdırılması prosesi gedir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları üzrə tikilən obyektlərin inşasına, həmçinin hərtərəfli elmi araşdırmalar aparıldıqdan sonra qərar verilir. "NB Satınalma və Ticarət" MMC-nin yeni müəssisəsinin açılışında bu məsələyə də diqqət yetirilib. MMC-də məhsulların hazırlanması üçün xammal Daşkəsən, Şəmkir, Ağstafa və Qaradağ rayonlarından gətirilir. Birincisi, bu xammal daxildən olduğu və istehsal edilən məhsulun maya dəyəri aşağı olduğu üçün xarici bazarda məhsulumuzun rəqabət qabiliyyəti yüksələcək. İkincisi isə, yerli xammaldan istifadə adları çəkilən rayonların inkişafına da müəyyən qədər təsir göstərəcək. Burada istesal edilən məhsulların Rusiya Federasiyasına, Gürcüstana və Orta Asiya ölkələrinə satışı nəzərdə tutulub.

Məlum olduğu kimi, dövlət tərəfindən sahibkarlığın inkisafına hərtərəfli dəstək verilir. Son bir neçə ildə iş adamlarına müxtəlif növ vergi güzəştləri edilib, müəyyən sahələr üzrə lisenziyaların verilməsi sadələşdirilib və ya ləğv olunub. Həmçinin qanunvericilik bazası təkmilləşdirilib, sahibkarların hüquqlarının qorunması üçün hüquqi və normativ aktlarda dəyişikliklər aparılıb. Dovlətin yaratdığı bu imkandan Gəncədə fəaliyyət gostərən sahibkarlar da faydalanıb. Belə ki, 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edildikdən sonra Sahibkarlığın İnkişafı Fondu tərəfindən Gəncədə calışan 498 sahibkara 51,2 milyon manat kredit verilib.

Prezident dəfələrlə bəyan edib ki, dövlət siyasətində Azərbaycan vətəndaşının mənafeyi öndə durur. Bu günə qədər ölkə vətəndaşlarının sosial rifahını yaxşılaşdıran layihələrin icrası da bunu sübut edir. Gəncə şəhəri də bu sahədə istisna deyil. Dövlət başçısının səfəri zamanı şəhərdə icra edilən sosial layihələr barədə məlumat verildi. Bildirildi ki, Mənzil İnşaat Dövlət Agentliyi (MİDA) tərəfindən 18 çoxmərtəbəli bina və əsaslı təmirə ehtiyacı olan 28 və 46 nömrəli ümumtəhsil məktəbləri ücün bina, usaq bağcası, həmcinin digər xidmət obyektləri tikilir. Cari ilin avqust ayında ümumtəhsil məktəb binasının və 2021-ci ilin sonunadək 11 yaşayış binasının istismara verilməsi nəzərdə tutulur.

Gəncə Azərbaycanın qədim şəhəridir və burada tikilən binaların bir çoxu xalqımızın tarixinin və memarlığının yadigarlarıdır. Dövlət başçısı burada "Şah Abbas" və "Uğurlu Xan" karvansara komplekslərinin bərpasından sonrakı vəziyyəti ilə tanış olub. "Şah Abbas" karvansarası 1663-1664-cü illərdə tikilib. Bu karvansaranın qarşısındakı bazar meydanı isə böyüklüyünə görə təkcə Təbriz bazar meydanından geri qalırmış. Bu fakt Gəncənin Azərbaycanın iqtisadiyyatındakı önəmli rolunu aydın şəkildə göstərir.

Prezident İlham Əliyevin iqtisadi siyasətində sənayeləşmə mühüm yer tutur. Dünyanın bir sıra qabaqcıl şirkətləri ilə sıx əməkdaşlıq yaradılaraq ölkəmizdə yüksək keyfiyyətli məhsulların istehsalı təşkil edilir. Dövlət başçısının təşəbbüsü ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə Belarusun "Belkommunmaş" ASC arasında bağlanmış müqavilə əsasında müəssisədə yeni "E-321" markalı elektrobusun istehsalına başlanılıb. İndiyədək 4 elektrobus yığılıb. Eyni zamanda birlikdə Finlandiyanın "Sampo" firması ilə əməkdaşlıq sayəsində yeni müasir kombaynların yığılmasına da başlanılıb.

Səfər zamanı dövlət başçısı Gəncə Dövlət Dram Teatrının və Gəncə İdman Sarayının tikintisinin gedişi ilə tanış oldu. Hər iki obyektin istifadəyə verilməsi şəhərin mədəni və idman həyatında mühüm rol oynayacaq. Azərbaycan Dövlət Aqrar Universitetinin yeni istifadəyə verilən tədris korpusunun açılışı isə yüksək səviyyəli kadrların hazırlanmasına və aqrar elmin inkişafına böyük töhfə verəcək.

Prezident İlham Əliyevin koronavirusla mübarizədə gördüyü islər ölkə ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Ümumdünya Səhiyyə Təşkilatı bu sahədə Azərbaycan dövlətinin həyata keçirdiyi qabaqlayıcı tədbirləri yüksək dəyərləndirib. Azərbaycanı dünyaya nümunəvi ölkə kimi təqdim edib. Dövlət başçısının səhiyyə sisteminin inkişafına göstərdiyi qayğısı sayəsində Azərbaycan bu gün dünyada ən aşağı koronavirusa yoluxma və ölüm halları qeydə alınan ölkələrdən biridir.

Prezidentə 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında məlumat verildi ki, digər modul tipli infeksion xəstəliklər korpuslarında olduğu kimi, burada da orta simptomları olan infeksion koronavirus xəstələrin qəbulu və müalicəsi üçün hər cür şərait yaradılıb. Bununla yanaşı, daha ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz olunması istiqamətində işlər görülür. Üç korpusdan ibarət olan, ümumilikdə 100 palata və 200 çarpayılıq xəstəxana kompleksi mərkəzləşdirilmiş oksigen generator sistemi, həmçinin xüsusi havalandırma sistemi ilə təchiz edilib.

Dövlət başçısı xəstəxana personalı ilə görüşü zamanı səhiyyə sistemində görülən işlərə və ölkə vətəndaşlarının sağlamlığına böyük əhəmiyyət verdiyini bildirərək demişdir: "Bütövlükdə deyə bilərəm ki, əgər son illər ərzində mənim göstərişimlə ölkəmizin hər bir yerində, o cümlədən Bakı şəhərində müasir xəstəxanalar tikilməsəydi, bu gün biz koronavirusla mübarizədə çox böyük problemlərlə üz-üzə qala bilərdik. Son illərdə ölkəmizin səhiyyə sisteminin möhkəmləndirilməsi işində ən vacib məsələlərdən biri yeni xəstəxanaların tikilməsi, köhnə xəstəxanaların isə əsaslı təmiri və bərpası olmuşdur. Beləliklə, bizim şəhərlərin mütləq əksəriyyətində xəstəxanalar tikilib və bir neçə şəhərdə tikinti davam edir".

2004-cü ildən regionların sosial-iqtisadi inkisafı Dövlət proqramlarının icrası sayəsində bölgələrdə çox iş görülüb. Üç dövlət proqramının icrası və dördüncü proqramın uğurla davam etməsi nəticəsində regionlarda mühüm sosial-infrastruktur layihələri icra edilib, minlərlə istehsal və xidmət müəssisəsi fəaliyyət göstərir, yeni iş yerləri açılıb. Dövlət başçısının iyunun 24-də Gəncəyə səfəri çərçivəsində açılan istehsal və sosial obyektlərinin timsalında regionların sosial-iqtisadi inkisafı Dövlət proqramlarının uğurla icra edilməsi bir daha aydın görünür.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan bütün imkanlarını COVID-19-la mübarizəyə yönəldib

## Əhalinin sağlamlığı və onun təhlükəsizliyinin təmin edilməsi dövlətin mühüm və prioritet vəzifəsidir

Dünya yeni tip koronavirusla mübarizədə keçən altı ayı geridə qoydu. Ötən yarım il ərzində ölkələr COVID-19-a qarşı mübarizə sahəsində müəyyən təcrübə qazandı. Lakin hələ də infeksiyanın qarşısını almaq üçün konkret vasitə, peyvənd olmadığı üçün pandemiyanın nə vaxt bitəcəyini dəqiq söyləmək mümkün deyil.

Məhz bu qeyri-müəyyənlik ölkələri konkret addım atmağa qoymur. Bir çox məhdudiyyətləri aradan qaldıran ölkələr yenidən sərt karantin rejiminə keçirlər.

Mayın əvvəlindən həyata keçirilən yumşaltma tədbirləri bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da xəstəliyin yayılma sürətini artırdı. Bir çox vətəndaş yumşaldılmanı koronavirusun yox olması kimi anlayaraq qoyulan qaydalara riayət etmədi. Sosial məsafə saxlanılmadı, maska taxılmadı, nəticədə bu məsuliyyətsizliyin acı reallığı ilə qarşı-qarşıya qaldıq. İyun ayının ortalarından koronavirus ölkə ərazisində sürətlə yayılmağa başladı, gündəlik təsdiq edilmiş yoluxma hallarının sayı 500-ü ötdü. Ölənlərin sayında artım oldu. Yoluxanlar arasında gənclərin, o cümlədən ağırlaşma halları olan xəstələrin sayı çoxaldı. Odur ki, 21 iyun tarixindən yenidən ölkədə karantin rejiminin uzadılmasına, bəzi rayon və şəhərlərdə sərtləşdirmələrə qərar verildi.

### Koronavirus infeksiyasına yoluxmuş bütün şəxslərin müalicəsi dövlət hesabına həyata keçirilir

Hazırda tətbiq edilmiş ciddi karantin rejimi nəticəsində şəhər üzrə mobilliyin və ictimai nəqliyyatdən istifadənin nisbətən aşağı düşməsi müşahidə edilir. Əhalinin daha çox evdə qalması, kütləvi toplantıların, gəzintilərin olmaması, insanlar arasında yaxın təmasların kəskin azalması nəticəsində növbəti günlərdə vəziyyətin nisbətən yaxşılaşması və müsbət dinamikanın əldə olunması gözlənilir. Hazırda gündəlik yoluxma sayında müəyyən qədər sabitləşmə təmin edilsə də, hələlik epidemioloji vəziyyəti qənaətbəxş hesab etmək olmaz. Çünki gündəlik koronavirusa yeni yoluxan xəstələrin sayı sağalanların sayından artıqdır. Bu da öz növbəsində təcili tibbi yardımın operativliyinə mənfi təsir göstərir, səhiyyə müəssisələrinin işini bir qədər də çətinləşdirir.

Azərbaycan dövləti qısa zamanda bütün səhiyyə sistemini koronavirusla mübarizəyə istiqamətləndirməyi bacardı. Belə ki, koronavirusa yoluxmuş xəstələrin müalicəsi üçün xəstəxanalar ayrıldı, yeni tibb müəssisələri istifadəyə verildi, modul tipli xəstəxanalar açıldı, onların bütün texniki ləvazimat, avadanlıq, dərman preparatları ilə təminatı həyata keçirildi, müasir laboratoriyalar alındı, qoruyucu vasitələrin istehsalı təşkil edildi. Lakin hər bir ölkənin səhiyyə sistemi müəyyən potensiala malikdir. Koronavirusa mövcud yoluxma dinamikası xəstəxanaların dolmasına, yerlərin çatışmamasına səbəb olur. Üstəlik, ölkədə başqa xəstəlikləri olan insanlar da var. Pandemiyanın pik həddində İtaliya, İspaniya, Fransa kimi səhiyyə sistemləri nümunə göstərilən ölkələrdə hətta ağır vəziyyətdə olan insanlar təcili tibbi yardım ala bilmirdilər, xəstəxanalarda yer çatışmadığına görə evdə qalır, müalicə almaq imkanından məhrum olurdular.

Nəzərə alınmalıdır ki, hər bir ölkənin səhiyyəsi pandemiyanın pik nöqtəsi və ya yoluxma hallarının kəskin artdığı dövrdə yüksək səviyyəli xidmət təşkil etməkdə çətinlik çəkir. İstənilən ölkədə ixtisaslı kadrların çatışmazlığı var. Bununla yanaşı, həkimlər aylarla xəstəxanalardan çıxmırlar, ailələrinin üzünü görmürlər, öz həyatlarını riskə atıb gecə-gündüz xəstəliklə mübarizə aparırlar. Məhz onların fədakarlığının nəticəsidir ki, bu gün minlərlə insan müalicə olunaraq sağalıb, dəhşətli bəladan qurtularaq öz ailələrinə qovuşub. Ona görə də xəstəxanalarda müalicənin pis aparılması, həkimlərin xəstələrə lazımi diqqət göstərməməsi kimi fikirlər səsləndirmək və ümumiləşdirərək bütün tibbi xidmətə şamil etmək əsassız və yolverilməzdir.

Azərbaycanda koronavirus infeksiyasına yoluxmuş bütün şəxslərin müalicəsi dövlətin hesabına həyata keçirilir. Bunun üçün ölkədə kifayət qədər dərman ehtiyatı var. Bununla yanaşı, bəzi hallarda vətəndaşlar müstəqil şəkildə, ayrı-ayrı şəxslərin tövsiyələri əsasında müalicə olunmağa üstünlük verirlər ki, bunun da hansı ağır fəsadlara yol aça biləcəyi barədə dəfələrə TƏBİB tərəfindən xəbərdarlıq olunub. Bəzi şəxslərin apteklərdən külli miqdarda vəsait sərf edərək çoxlu sayda dərman preparatları alıb yığması halları da müşahidə olunur. Türkiyədə pandemiya başlayandan sonra vətəndaşların kütləvi şəkildə "Hydroxychloroquine" tərkibli preparatları alması halı müşahidə ediləndə bütün əczaxanalardan həmin dərman geri alındı və mərkəzləşdirilmiş qaydada virusa yoluxmuş xəstələrə verilməyə başlandı. Hər kəs bilməlidir ki, koronavirus xəstələrinin müalicəsi müvafiq protokola əsasən, xəstənin xüsusiyyətləri, yanaşı xəstəliyinin olub-olmaması, immun sisteminin vəziyyəti, hazırkı durumu nəzərə alınmaqla ixtisaslı həkimlər tərəfindən təyin olunur. Mövcud tələblərin nəzərə alınmaması hər bir fərd üçün ciddi fəsadlara səbəb ola bilər.

### Həyat tərzimizi yaranmış vəziyyətə uyğunlaşdırmalıyıq

Koronavirusun yayılmasında artım dinamikasının təhlili göstərir ki, insanlar, əsasən, iş yerlərində, ailədaxili, ictimai nəqliyyatda, kütləvi yerlərdə virusa yoluxurlar. İş yerlərində ümumi istifadə yerləri (mətbəx, sanitar qovşaqları, görüş otaqları) və qoruyucu vasitələrdən istifadə etməmək, maska taxmamaq, məsafə gözləməmək yoluxmaya səbəb olan əsas amillərdəndir.

Bundan başqa, xəstəliyin ilkin simptomlarını özündə hiss edən şəxs tibbi xidmətə müraciət etmək əvəzinə, məsuliyyətsizlik edərək adi həyat qaydasını davam edir, bəzi hallarda özünü müalicə etməyə çalışır, bütün bu müddət ərzində də tək öz vəziyyətini ağırlaşdırmır, ətrafını da yoluxdurmağa davam edir.

Vətəndaşların təhlükəsizlik qaydalarını kobud şəkildə pozması, virusa yoluxmuş qohumlarını, qonşularını ziyarət etməsi halları da müşahidə olunur.

Təəssüf ki, hələ də bəzi şəxslər koronavirus pandemiyasına şübhə ilə yanaşır, müxtəlif konspiroloji nəzəriyyələrin təsiri altında zərərli fikirlər bölüşür, özü, yaxınları, ətrafı üçün ciddi təhlükə yaratmaqda davam edir. Halbuki artıq koronavirusun mövcud olub-olmaması müzakirə mövzusu deyil, çünki hər birimizin qohumları, yaxınları, qonşuları arasında yoluxma halları kifayət qədərdir. Karantin rejiminin yumşaldılmasından sonra müşahidə olunan artım, ilk növbədə, bu cür məsuliyyətsiz davranış, tətbiq olunan qaydalara, tələb və tövsiyələrə riayət etməməklə bağlıdır.

Hamı bilməlidir ki, üzləşdiyimiz vəziyyət kifayət qədər mürəkkəbdir və bu problemin qısamüddətli, asan həlli yoxdur. Ona görə də davranış və həyat tərzimizi yaranmış vəziyyətə uyğunlaşdırmalıyıq. Mövcud pozuntuların miqyasını azaltmaq, karantin rejimi dövründə daha müsbət nəticələr əldə etmək üçün iş yerlərində işçilərin saylarının azaldılması, növbəli və məsafəli iş rejiminin tətbiqi vacibdir. Vətəndaşlar xüsusi zərurət olmadıqda ictimai nəqliyyatdan istifadə etməməli, gərəksiz yerə evdən çıxmamalıdırlar. İctimai yerlərdə tibbi maskadan istifadəyə nəzarət daha da gücləndirilməlidir.

### Virusa qalib gəlməyin yeganə yolu məsuliyyətli davranmaqdır

Azərbaycan hələ virusun ilk yayıldığı zamandan həyata keçirdiyi qabaqlayıcı tədbirlər sayəsində qlobal böhrandan minimum itkilərlə çıxmağı bacaran ölkələr siyahısında yer aldı. Hətta respublikamızın mübarizə üsulu Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən digər dövlətlərə nümunə göstərildi. Dövlət aylardır bütün imkanlarını koronavirusla mübarizəyə yönəldib. Əhalinin sağlamlığı və onun təhlükəsizliyinin təmin edilməsi Azərbaycan dövləti üçün ən mühüm və prioritet vəzifədir. Azərbaycan güclü dövlətdir, bütün çətinliklərə baxmayaraq bu günə kimi əhalinin sosial təminatı və iqtisadi dayanıqlığın təmin edilməsi üçün bütün tədbirlər görülüb və görülməkdə davam edir. Azərbaycan dövləti üçün heç bir səbəb əhalinin sağlamlığından öndə ola bilməz.

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində dövlətin apardığı mübarizədə əhali də həmrəylik nümayiş etdirməlidir. Dövlətimizin bütün çağırışlarına əməl etmək indiki məqamda ən böyük vətənpərvərlik nümunəsidir. Vətəndaşlar bütün proseslərə məsuliyyətlə yanaşmalı və karantin rejiminə əməl etməlidirlər. Hazırda virusa qalib gəlməyin yeganə yolu məsuliyyətli davranmaq, karantin qaydalarına riayət etməkdir. Biz pozuntulara qarşı nə qədər barışmaz olsaq, ətrafımızdakı insanların biganəliyinə qarşı mübarizlik nümayiş etdirsək, bir o qədər də tez və yaxşı nəticə əldə etməyə müvəffəq ola bilərik. Biz nə qədər həmrəy olub həm özümüz, həm də ətrafdakı insanlar, yaxınlarımız tərəfindən sadə qaydalara əməl etməyi təmin edə bilsək, bir o qədər tez bu vəziyyətdən çıxa biləcəyik və həyat öz adi axarına qayıdacaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Bəzi xəstələr evdə müalicə olunacaq

## Poliklinikalar da COVID-19-la mübarizəyə qoşuldu

COVID-19 dünyada yenidən alovlanmağa başlayıb. Buna səbəb kimi bir çox ölkələrdə sərt karantin rejiminin yumşaldılması və əhalinin tələb olunan qaydalara lazımınca riayət etməməsi göstərilir. Yer üzünü bürümüş bu bəlanın nə zaman sovuşacağı isə bəlli deyil.

Azərbaycanda koronavirusla ilk zamandan aparılan effektiv mübarizə ölkəni yaşanması mümkün olan faciədən qorudu və biz bu təhlükədən az itkilərlə çıxa bildik. Buna görə də qısa zamanda virusdan sağalanların sayı, yoluxanların sayını xeyli üstələdi.

Təəssüf ki, ölkəmizdə də sərt karantin rejiminin yumşaldılması ərəfəsində bəzilərinin pandemiyanın şərtlərinə uyğun davranmaması yoluxma sayında artıma səbəb oldu. Buna görə də vətəndaşların sağlamlıqlarının qorunması üçün ölkədə yenidən karantin rejimi uzadıldı və bəzi rayon və şəhərlərdə sərt karantin tətbiq edildi. Buna görə hazırda ölkəmizdə virusa yoluxma sayında müəyyən stabilləşmələr müşahidə olunur. Eyni zamanda bütün koronaviruslu xəstələrin tibb müəssisələrində yüksək səviyyədə müalicə olunması sağalanların sayını artırır. Hər bir ağır xəstənin həyata qaytarılması üçün zəruri tədbirlər həyata keçirilir. Koronavirusa yoluxan yüngül xəstələrin evdə müalicəsinin həyata keçirilməsi də bu istiqamətdə atılan təsirli tədbirlərdən biridir.

Bəs koronavirusa yoluxan şəxslərin ev şəraitində müalicəsinin təşkili necə həyata keçiriləcək? Buna nəzarət mexanizmi necə olacaq?

### Təcili və Təxirəsalınmaz Tibbi Yardımın yüklülüyü azaldılır

Bununla bağlı Səhiyyə Nazirliyi Operativ Qərargahın tapşırığı ilə COVID-19-la mübarizədə yaranan problemlərin aradan qaldırılması üçün poliklinikalara ediləcək yardımın nədən ibarət olduğu haqqında məlumat yayıb. Nazirlik tərəfindən yaradılmış işçi qrupunun üzvü Nabil Seyidovun sözlərinə görə, bu yardım metodiki tövsiyələr və təşkilati məsələlərin həll edilməsindən ibarətdir.

İşçi qrupunun üzvü bildirib ki, evdə müalicə alan xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi və əhali tərəfindən müraciətlərin artması nəticəsində Təcili və Təxirəsalınmaz Tibbi Yardımın (TTTY) yüklülüyünün azaldılması məqsədilə Bakı şəhəri üzrə bütün rayonlarda simptomsuz və yüngül simptomlu yoluxmuş şəxslərin aşkarlanması, müayinəsi, laborator testlərindən keçirilməsi və davamlı təqibi üçün müvafiq ilkin səhiyyə müəssisələri artıq müəyyənləşdirilib. Onun sözlərinə görə, Səhiyyə Nazirliyi tərəfindən simptomsuz və yüngül simptomlu şəxslərin müayinə və müalicəsinə dair xüsusi metodik tövsiyələr hazırlanıb, poliklinikalara əlavə təlimatlar təqdim edilib.



### Simptomsuz pasiyentlərin evdə müşahidəsi

N.Seyidov deyib ki, nazirlik tərəfindən təqdim olunan tövsiyələrə görə, vətəndaşlar COVID-19-la bağlı yaşadıqları ünvana uyğun olaraq, müvafiq poliklinikarla əlaqə saxlayacaqlar: "Poliklinikanın mütəxəssisləri tərəfindən vətəndaşın vəziyyəti ilkin olaraq qiymətləndiriləcək və COVID-19-a dəlalət edən şikayət, simptom və ya yoluxma riskini artıran digər faktorlar (məs., təmas) dəyərləndiriləcək. Tibb işçisinin qərarı əsasında yoluxma riski olan və ya koronavirus xəstəliyi ehtimalı olan şəxslərin müayinəsi və PZR testinin aparılması üçün poliklinikaların tibbi briqadaları evlərə səfər edərək testlər üçün nümunələr götürəcəklər.

Ümumiyyətlə, Bakı şəhəri üzrə bütün poliklinikalara verilmiş tövsiyə və təlimatlara əsasən simptomsuz pasiyentlərin evdə müşahidəsi, yüngül gedişatlı xəstələrin müalicəsi təmin ediləcək. Pasiyentlərin səhhətlərində baş verən hər hansı pisləşmə və ya mənfi dinamika müəyyən edilən kimi onlar poliklinika həkimi tərəfindən təkrar qiymətləndiriləcək. Obyektiv pisləşmə olduqda həmin an hospitalizasiya olunacaq".

### Vətəndaşlarımıza tələb olunan tibbi xidmətin göstərilməsi davam etdiriləcək

O qeyd edib ki, poliklinikalar COVID-19-un müalicəsi ilə yanaşı, öz adi fəaliyyətlərini də davam etdirir: "Yəni dispanser qeydiyyatı olan digər xəstəliklərlə bağlı pasiyentlər poliklinika əməkdaşları ilə telefonla təmas qura, həkimləri ilə əlaqə saxlaya və tələb olunduqda poliklinikaya gəlib, müayinədən keçə bilərlər".

Lakin xüsusi işçi qrupunun üzvü Nabil Seyidov hazırda koronavirusa yoluxma riskinin artdığı vəziyyətdə vətəndaşların digər məsələlərlə bağlı poliklinikaya gəlişlərinin məhdudlaşdırılmasını məqsədəuyğun hesab edir. Testlərin yalnız məlumatlara uyğun olaraq aparılacağını bir daha xatırladan Nabil Seyidov vətəndaşların öz poliklinikalarına zəng etməklə COVID-19 infeksiyası və onun profilaktikası, habelə evdə müşahidə və müalicə ilə bağlı müvafiq məlumat və təlimat əldə edə biləcəyini qeyd edib.

Bütün bu tövsiyələrin yerinə yetirilməsi nəticəsində ilkin səhiyyə xidməti olan poliklinikalar COVID-19 xəstələrinə daha yaxşı tibbi yardım göstərə biləcək, TTTY-nin yüklənməsi azalacaq və vətəndaşlarımıza COVID-19 pandemiyası dönəmində tələb olunan tibbi xidmət davam etdiriləcək", - deyə o bildirib.

Səhiyyə Nazirliyinin Aparat rəhbəri Nadir Zeynalov Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində məlumat verdi ki, COVID-19 xəstəliyindən əziyyət çəkmiş şəxslər evə buraxıldıqdan sonra yaşadığı ünvan üzrə poliklinikada qeydiyyatda olurlar. Hazırda Bakı və Bakıətrafında qeydiyyatda olan 2 minə yaxın şəxs poliklinika nəzarətindədir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ermənistanın gerçək üzü

Avropa İttifaqının “Şərq tərəfdaşlığı proqramı” çərçivəsində videokonfrans formatında keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyana “Ermənistan Azərbaycanın ərazisini işğal edib və Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim” deyib, bir daha tərs şillə vuraraq yerində oturtdu.

Azərbaycan Respublikasının Prezidenti bu sözləri ilə Ermənistanın gerçək üzünün terrorçuluq, iqrçilik və işğalçılıq olduğunu yenidən bəyan etdi. Şərh və təhlil etmədən rus, rusdilli erməni və türk mənbələrində erməni terrorunu və irqçiliyini təsdiq edən minlərlə konkret tarixi faktlardan yalnız bir neçəsinə nəzər yetirək.

## Terrorçuluğu Cənubi Qafqaza kim gətirib?

Sənədlər sübut edir ki, Cənubi Qafqaza terroru bu regionda aborigen olmayan ermənilər özləri ilə gətiriblər. XIX əsrin 80-ci illərinin sonlarında Tiflisdəki bir neçə rus məktəbinin erməni mənşəli müəlliminin yaratdığı inqilabçı-terrorçu qrupunun “Qnçak” (Zəng) jurnalında terrorçuluq təbliğ edilirdi. Cenevrədə Nazarbayev qardaşlarının 1886-cı ildə qurduqları Qnçak terror-siyasi təşkilatının proqramında birmənalı olaraq yazılırdı: *“Terror inqilabi təbliğatı mühafizə etmək üçün özünü müdafiəyə və idarəçilərin zərərli hərəkətlərinə qarşı silahla xidmət etməlidir”.*

Erməni iri ticarət-sənaye burjuaziyası nümayəndələrinin 1890-cı ildə Tiflisdə yaratdıqları Erməni İnqilabi Partiyası Daşnaksütyunun 1894-cü ildə qəbul edilən ilk proqramında vurğulanırdı: *“Türkiyədən kənarda hər yerdə erməni xəyanətkarlarını öldürmək və digər terror təşkilatları ilə əlaqə qurmaq”.*

Terrordan danışan N.Paşinyan və digərləri hər halda babalarının qurduğu bu təşkilatların proqramını oxumamış deyillər. Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycan türkləri və gürcülər hələ özlərinin siyasi təşkilatlarını yaratmamışdılar.

Erməni terror-siyasi təşkilatlarının proqramları bir daha təsdiq edir ki, kilsə ilə yanaşı, erməni ünsürünü bir yerə toplayan terror təşkilatları olub və erməni cəmiyyətinin təməlində terror dayanır. Bu gerçəkliyi daşnakların “Droşak” (“Bayraq”) qəzeti daşnak terrorçusu Martiros Çarıxçıyana həsr etdiyi məqaləsində aşağıdakı kimi ifadə edirdi: *“Erməni həyatı inqilabi fikirləri həqiqi və zəruri olaraq əks etdirən bir tip istehsal etmiş və hazırlamışdır. Bu, terrorçudur və təhdid edən tipdir”.*

Tarixi faktlar və müasir reallıqlar sübut edir ki, həqiqətən də təhsili, vəzifəsi və ictimai mövqeyindən asılı olmayaraq hər bir erməni ya terrorçudur, ya da potensial terrorçudur. Elə isə baxaq görək bu barədə ən mötəbər arxiv sənədləri nə deyir?

## Çarizm dövründə Cənubi Qafqazdakı rus, gürcü və yəhudi əsilli məmurlara qarşı erməni terroru

Çarizm dövründə azərbaycanlılara qarşı olan terror aktlarının üstündən bilərəkdən keçərək erməni terrorçularının Cənubi Qafqazda çalışan rus, gürcü və yəhudi əsilli məmurlara qarşı törətdikləri terror aktlarından bir neçəsinə şərh vermədən diqqət yetirək. Belə ki, 1903-cü ildə erməni terrorçuları Qafqaz canişini knyaz Q.S.Qolitsınə sui-qəsd etdilər, lakin canişin sağ qaldı. Daşnaksütyunun üzvləri olan müəllimlər Semyon Qarayan və Xeço Ryabyan 1904-cü ildə Eçmiadzin qəza rəisi Şmerlinqi öldürdülər. Məktəbdə şagirdlərə dərs verən və müəllim adını daşıyan bu şəxslərin terror aktı törətməsi “Droşak” qəzetinin yazdıqlarını təsdiq edirdi. Həmin ildə erməni terrorçuları Yelizavetpol şəhərində pristav Abramoviçi, Kars şəhərində Kars briqadası sərhəd dəstəsinin 1-ci bölməsinin rəisi polkovnik Bıkovu, ermənilərin silah daşımasına mane olan Sürməli qəza rəisi Boquslavskini, Şuşada jandarma zabiti Podşivalovu, Aleksandropol şəhər polis pristavı Naşanskini, polis işçisi Saxarovu, Şuşada vergi inspektoru Şerbakovu, Karsda jandarma idarəsinin tərcüməçisi Qrozdevi, Eçmiadzin qəzasında erməni kilsəsinin əmlakını mühafizə edən Savini, Eçmiadzin şəhərində mühafizəçi Qonçarenkonu, Eçmiadzin pristavı Qulielini, Karsda polis işçisi Xerxulidzeni öldürdülər.

1905-ci il hadisələrinin gedişində Bakı qubernatoru M.A.Nakaşidzenin öldürülməsi üçün Daşnaksütyun 35 min rubl pul ayırmışdı. 1905-ci il mayın 11-də gündüz saat 3-də Parapet küçəsi ilə Vrangel küçəsinin kəsişdiyi yerdə hərəkət edən knyaz M.A.Nakaşidzeyə sui-qəsd edildi. Ağır yaralanan qubernator mayın 18-də öldü. Bu terror aktı barədə Daşnaksütyunun yaydığı proklamasiyada yazılırdı ki, qubernatora qəsd droşakistlər tərəfindən həyata keçirilib. Qətldən az sonra “Erməni xalqına müraciətində” Daşnaksütyun yazırdı ki, artıq Nakaşidze yoxdur. M.A.Nakaşidzeni öldürən 4 nəfər erməniyə - Şuşa şəhər sakini Simon Balasanova, Bakı şəhər sakini Georgi Mayramova, İran təbəələri Petros Saxakyansa və Levon Arutunova və Naxçıvan qəzasından olan Minas Aqayansa məhkəmənin qərarı ilə ölüm hökmü verildi. Lakin sonralar ölüm hökmü ləğv edildi və onların hər biri 15 illik katorqaya göndərildilər. Qətldə iştirak edən beşinci adam həddi-büluğa çatmamış Minas Aqayans isə yalnız 1907-ci ildə mühakimə olundu və bəraət aldı. Bu terror aktının iştirakçıları arasında həddi-büluğa çatmamış Minas Aqayansın olması da “Droşak” qəzetinin yazdıqlarını təsdiq edirdi, yəni erməni cəmiyyətində müəllim də, şagird də terrorçudur və ya istənilən an terrorçu ola bilər.

Daşnaksütyun terrorçuları general Əlixanovu, qəza rəisi Pavlovu, polis işçiləri Cavaxovu, Şumakeviçi və başqa şəxsləri öldürdülər. 1906-cı il iyunun 17-də Yelizavetpolda vağzalyanı sahədə pirstav Murovskiyə arxadan 3 güllə vurdular.

Yelizavetpol quberniyasında erməni terrorçularının qanlı fəaliyyətləri davam edirdi. Qubernator Kalaçev 1906-cı il 16 noyabr tarixli şifrəli teleqramında Qafqaz canişinliyinin xüsusi şöbəsinin rəisi polkovnik Babuşkinə yazırdı: *“1905-ci il fevralın 1-dən 1906-cı il mayın 1-dək Yelizavetpol quberniyasında terror aktları nəticəsində 1 qəza rəisinin köməkçisi, 4 pristav, 1 jandarma işçisi 23 mühafizəçi öldürülmüş, 6 mühafizəçi yaralanmışdır”.*

Daşnaksütyunu ləğv etməkdə israr etdiyi üçün Yelizavetpol qəza rəisi podpolkovnik Avaliani daşnak terrorçuları Arutun Xaçaturov və Asatur Davıdov tərəfindən 1907-ci ildə öldürüldü.

Bakıda daşnak mətbəəsini aşkarlayan pristav Narışkin, nəzarətçilər Qrin və Kalaşnikov Daşnaksütyunun göstərişi ilə öldürüldülər. Bundan sonra daşnaklar terrora bir qədər ara versələr də, az müddət keçmiş polismeyster Şervudu və 3 pristavı qətlə yetirdilər.

Vəzifələrinə uyğun olaraq şəxslərin öldürülməsi üçün terrorçulara verilən pul da fərqli olurdu. Bununla bağlı olaraq “Tverskoe Povoljye” qəzeti 1908-ci il 28 sentyabr tarixli sayında yazırdı ki, şəhər polis idarəsinin aşağı rütbəli işçisini öldürmək üçün 5 rubl, həbsxana nəzarətçisini öldürmək üçün 15 rubl, pristavı öldürmək üçün 25 rubl pul verilir. Tiflis quberniya jandarma idarəsinin 1908-ci il 31 dekabr tarixli 5428 №-li tamamilə məxfi məktubunda yazılırdı ki, hər bir terrorçuya ayda 45 rubl maaş və hər bir terror aktına görə isə məbləği müəyyənləşdirilməyən qonorar verilir.

Ümumiyyətlə, çarizm sənədlərindən aydın olur ki, 1905-1908-ci illərdə daşnaklar 47 siyasi qətl törətmişdilər. 1908-ci il iyulun 1-dən 1909-cu il iyulun 1-dək Qafqaz diyarının quberniya və vilayətlərində 348 daşnak istintaqa cəlb edilmiş və həbs olunmuşdu. Erməni ünsürü də terrorçulara yardımlar edirdi. Rusiya imperiyasının Ədliyyə naziri İ.Şeqlovitov erməni ünsürünün terror təşkilatlarına ianələr verməsi barədə Qafqaz canişini Vorontsov-Daşkova 1909-cu il iyunun 11-də göndərdiyi 31248 №-li məxfi məktubunda yazırdı: *“...heç şübhəsiz, bu ianələr dinc erməni əhalisini terrorizə edən güclü bir partiyanın adətən qorxulu təsiri altında edilib”.*

Birinci Dünya müharibəsi illərində təşkil edilən erməni silahlı dəstələrinin başında məşhur terrorçular dayanırdı. Çar hakimiyyət orqanlarının “Cari hərbi hadisələrlə əlaqədar olaraq erməni inqilabi və milli hərəkatına dair qeydlər” adlı 1915-ci il 5 may tarixli 167800 saylı tamamilə məxfi sənədində birmənalı şəkildə yazılırdı: *“Silahlı dəstələrin başına Andranik məşhur terrorçuları təyin etdi”.*

Mənbələrdən aydın olur ki, erməni terror-siyasi təşkilatları gürcülərə nifrət edirdi. Gürcü dilində Tiflisdə nəşr edilən “Saxalxo-Purçeli” qəzeti 1916-cı il 22 aprel tarixli 556-cı sayında yazırdı ki, ermənilər Gürcüstanda hələ möhkəmlənmədikləri bir zamanda erməni-gürcü münasibətləri kəskin deyildi. Zaman-zaman Gürcüstanda ermənilər iqtisadi cəhətdən möhkəmləndilər. O zaman bir-birinə zidd olan iki dünyagörüş toqquşdu. Erməni plutokratiyasının istəkləri və arzularının hüdudu yoxdur. Ermənilərə qarşı mübarizə gürcü millətçiliyinin yeganə predmetidir. Gürcü millətçilyi erməni təhlükəsindən xalqını xilas etmək niyyətindədir. Qəzet qeyd edirdi ki, ermənilər gürcülərlə dost münasibətlərdə deyillər.

## Daşnak Ermənistanında terrorçuluq və irqçilik dövlət siyasəti kimi qəbul edilir

Cənubi Qafqazda heç bir zaman olmayan Ararat və ya Ermənistan adlı bir dövlət türk, azərbaycanlı torpaqlarında qurulduqdan və Azərbaycan tərəfi tarixən azərbaycanlılara məxsus olan İrəvan şəhərini paytaxt olaraq verdikdən sonra daşnaklar soyqırımı, iqrçiliyi və terrorçuluğu dövlət siyasətinə çevirdilər. Sovet hakimiyyətinin ilk illərində hazırlanmış “Daşnaksütyun Partiyasının əksinqilabi rolu” adlı sənəddə yazılırdı ki, daşnaklar hakimiyyətə gələrkən Ermənistan ərazisində 1 milyon 200 min nəfər əhali var idi. 1920-ci ilin sonlarında Ermənistan sovetləşdiriləndə isə ölkə əhalisi cəmi 770 min nəfər idi. 1918-1920-ci illərdə Daşnaksütyunun hakimiyyəti illərində Ermənistanda əhali 35,5% azalmışdı. Türklər 77%, kürdlər 98%, yezidi kürdlər 40% azalmışdılar. Əgər 1918-ci ildə Ermənistanda türklər 260 min nəfər idilərsə, 1920-ci ildə 60 min olmuş və ya 77% azalmışdılar. Kürdlər 1918-ci ildə 25 min nəfər idilərsə, 1920-ci ildə 0,5 min nəfər olmuş və ya 98% azalmışdılar. Yezidilər bu illərdə 8 min nəfər idilərsə, 1920-ci ildə 5 min nəfər olmuş və 40% azalmışdılar. Ruslar isə 15 min nəfərdən 14 min nəfərə düşmüş və ya 7% azalmışdılar. Digər millətlərin sayı 7 mindən 4 min nəfərə düşmüş və ya 43% azalmışdı. Bu isə iqriçilik, soyqırımı və terrorçuluq siyasətinin konkret nəticəsi idi.

## Ənənə davam etdirilir: türklər, amerikalılar, fransızlar, isveçrəlilər, ruslar, ispanlar, avstriyalılar, kanadalılar... erməni terrorunun qurbanı olurlar

1920-ci ilin noyabrında Ermənistanda hakimiyyətdə daşnakları erməni bolşevikləri əvəz etsə də, terrorçuluq hərəkətləri dayandırılmadı. Terror aktlarını bu dəfə bolşevik libası geyinmiş erməni milislər törətməyə başladılar. Məsələn, 1923-cü il oktyabrın 5-6-da erməni milisləri İrəvandakı Türkiyə nümayəndəliyinə soxularaq türk bayrağını təhqir etdilər. Sovet-türk münasibətlərində diplomatik gərginliyə səbəb olan bu hadisə də “Droşak” qəzetinin yazdıqlarını təsdiq edirdi: yəni hansı ideologiyanın hakimiyyəti altında işləməsindən asılı olmayaraq, erməni milisi də terrorçudur.

XX əsrin 70-ci illərinin əvvəllərində yaranmış beynəlxalq şəraitdə dünyanın müxtəlif ölkələrində mövcud olan erməni terror təşkilatları yenidən fəallaşdılar və terror aktlarını amansızlıqla həyata keçirməyə başladılar. Terror aktları ayrı-ayrı türk diplomatlarına, banklarına, digər ölkələrin hava limanlarına, vağzal binalarına və agentliklərinə qarşı törədildi, gedişində digər millətlərin də nümayəndələri öldürüldü.

Erməni terrorçuları ilk terror aktını dünyanın fövqəldövlətlərindən və Türkiyənin NATO-da müttəfiqi olan ABŞ ərazisində həyata keçirdilər. “Sultan Əbdülhəmidin sarayından oğurlanmış bir tablonun Türkiyəyə göndərilməsi üçün təşkil edilmiş bir mərasimə” dəvət olunan Türkiyənin Los-Anceles şəhərindəki baş konsulu Mehmet Baydar və konsul müavini Bahadır Demir 1973-cü il yanvarın 27-də ABŞ-ın Kaliforniya ştatının Santa Barbara şəhərində Baltimor mehmanxanasında xüsusi yemək otağında Ərzurumda doğulmuş, 1946-cı ildə ABŞ-a köçərək vətəndaşlığı qəbul etmiş 77 yaşlı terrorçu Qurgen Yanukyan tərəfindən qətlə yetirildilər. Mehmet Baydar xəstəxanaya aparılarkən yolda vəfat etdi. 30 yaşındakı Bahadır Demir isə St. Francis xəstəxanasında öldü. Onun başından beş güllə çıxarıldı.

Üç ay əvvəl Yanukyan Türkiyənin Los-Ancelesdəki baş konsulluğuna bir məktub göndərmişdi. Məktubda yazılırdı: *“Məndə Əbdülhəmid sarayından oğurlanmış bir tablo vardır. Bunu Türkiyəyə, sizlərə hədiyyə etmək istəyirəm. Santa Barbara şəhərinə sizləri bu məqsədlə dəvət edirəm. Burada birlikdə yemək yeyər, eyni zamanda, bu tablonu kiçik və səmimi toplantıda sizə təqdim edərəm”.* Dəvəti qəbul edən baş konsul və müavini Santa Barbara şəhərinə getmişdilər. Səmimi qarşılanan türkləri hotelin özəl yemək salonuna aparmışdılar. Yanukyan və dəvət olunanlar masaya oturduqdan az sonra aralarında mübahisə yaranmışdı. Bir qədər keçmiş atəş səsləri eşidilmişdi. Qarsonlar içəri girdikdə konsulların güllələndiklərini görmüşdülər.

Yanukyan 1917-ci il oktyabr çevrilişindən sonra Suzan adlı rus həkimlə evlənmiş, bir müddət Avropa ölkələrində yaşamış, sonra isə ABŞ-a köçmüşdü. Xəttatlıq sənəti sayəsində qısa müddətdə fırıldaq yolu ilə varlanmışdı. Özünü pyes, roman müəllifi və filosof kimi təqdim etmişdi. Hadisədən əvvəl türk konsulluğu belə bir məzmunlu anonim məktub almışdı: *“Yaxınlarda böyük şiddət hadisəsinə hazır olun”.* Cinayət hadisəsi ilə bağlı məhkəmə prosesi keçirilmişdi. Qatilə ölüm hökmü kəsilsə də, 1984-cü il dekabrın 31-də səhhətinin ağırlığına görə həbsdən azad edilmişdi.

Baş verən hadisə dəlilik deyil, Kaliforniyada qurulan erməni terror təşkilatlarının fəaliyyətinin tərkib hissəsi, bilavasitə nəticəsi idi. Yanukyanın “qəhrəman” kimi təbliğ edilməsi erməni ünsürünün xarakterini və əhvali-ruhiyyəsini göstərirdi.

Özünü yazıçı və filosof kimi təqdim edən Yanukyanın terror aktını törətməsi də “Droşak”ın yazdıqlarını təsdiq edirdi, yəni erməni sənətkarı, yazıçısı, filosofu da terrorçudur və ya potensial terrorçudur.

1973-cü il aprelin 4-də Parisdə erməni terror qruplaşması Türkiyə konsulluğunun və hava yollarının binası qarşısında bomba partlatdı.

Nyu Yorkda yerləşən Türkiyə informasiya xidməti 1973-cü il oktyabrın 26-da bir poçt bağlaması aldı. Bağlamadan Santa Barbarada türk diplomatlarını öldürən Qurgen Yanukyan terror qrupunun məktubu və bomba çıxdı. Təhlükəsizlik xidməti əməkdaşları bombanı zərərsizləşdirdilər.

1975-ci il oktyabrın 22-də üç erməni terrorçusu Türkiyənin Vyanadakı səfirliyinin binasına soxularaq səfir Deniz Tunalicili qətlə yetirdi.

Livanda Beyrutdakı Türkiyə səfirliyinin binası həmin ilin oktyabrın 28-də raketlə bombardman edildi. Binaya xeyli ziyan dəydi.

Erməni terrorunun növbəti hədəfi Moskva oldu. 1977-ci il yanvarın 8-də Moskvada erməni terrorçuları Stepan Zatikyan, Akop Stepanyan və Zaven Baqdasaryan tərəfindən bir neçə teror aktı törədildi. Metronun “İzmayılovskaya” və “Pervomayskaya” stansiyaları arasında keçiddə axşamüstü birinci bomba partladıldı. Partlayışda 7 nəfər öldü. İkinci bomba həmin gün Dzerjinski küçəsində SSRİ DTK binasının yaxınlığındakı 15 saylı, üçüncü bomba isə 25 oktyabr küçəsindəki 5 saylı ərzaq dükanlarında partladıldı. Terrorçular məhkəmənin qərarı ilə ölümə məhkum edildilər və qərar icra edildi.

1978-ci il iyunun 2-də Türkiyənin İspaniyadakı səfiri Zeki Günerel Madriddə iş yerinin qarşısında öldürüldü. Onunla birlikdə həyat yoldaşı Rekle Günerel, təqaüddə olan keçmiş səfir Beşir Balaşoğlu və səfirin milliyyətcə ispan olan sürücüsü Antonio Torres də qətlə yetirildilər. Həmin ilin dekabr ayının 6-da İsveçrənin Cenevrə şəhərində Türkiyə konsulluğunun binası qarşısında partlayış baş verdi. Buna görə məsuliyyəti “Yeni erməni müqaviməti” öz üzərinə götürdü.

Başlıca məqsədi Türkiyə ərazisində fəaliyyət göstərmək üçün terrorçular hazırlamaq olan “Erməni azadlıq cəbhəsi” adlı terror təşkilatı 1979-cu ildə yaradıldı. Həmin il iyulun 8-də erməni terrorçuları Türkiyənin Parisdəki avianəqliyyat şirkətində, əmək məsələləri attaşesinin binasında və turizm bürosunda partlayış törətdilər. Avqustun 22-də Cenevrədəki türk konsulu Niyazi Edalinin maşınına qoyulmuş bombanın partlaması nəticəsində paytaxtın iki sakini yaralandı. Bu hadisədən beş gün sonra Almaniyanın Frankfurt şəhərində Türk Hava Yollarının ofisi qarşısında bomba partlayışı nəticəsində bir neçə adam yaralandı. Həmin ilin oktyabrın 4-də Danimarkanın paytaxtı Kopenhagendə Türk Hava Yollarının ofisi qarşısında bomba partladılması nəticəsində adamlar həlak oldu. Oktyabrın 12-də Hollandiyada Haaqadakı Türkiyə səfiri Özdemir Benlerin 27 yaşlı oğlu, Delft Texniki Universitetinin doktorantı Ahmet Benler şəxsi avtomobilində bir neçə şəxsin gözü qarşısında erməni terrorçusu tərəfindən öldürüldü. Oktyabrın 30-da İtaliyanın Milan şəhərində Türk Hava Yollarının ofisində baş verən partlayış nəticəsində binaya xeyli ziyan dəydi. Noyabrın 8-də Roma şəhərində Türkiyə səfirliyinin binasında bomba partladıldı. Bu hadisədən 10 gün sonra Parisdəki Türk Hava Yollarının ofisinin yerləşdiyi binada partlayış törədildi. Dekabrın 17-də Londonda Türk Hava Yollarına məxsus binada partlayış baş verdi. Bu hadisədən bir neçə gün sonra, dekabrın 22-də Türkiyənin Fransadakı səfirliyinin turizm məsələləri üzrə attaşesi Yılmaz Şolpan Yelisey meydanında erməni terrorçusu tərəfindən qətlə yetirildi. Elə həmin gün Hollandiyanın paytaxtı Amsterdamda Türk Hava Yollarının ofisi qarşısında güclü partlayış törədildi.

Türk diplomatlarına qarşı törədilən erməni terroru amansızlıqla davam edirdi. 1980-ci il aprelin 17-də Romada Baş kilsənin yanında üç nəfər erməni terrorçusu Türkiyənin Vatikandakı səfiri Vecdi Turala qəsd etdi. Bu terror aktı nəticəsində səfir, mühafizəçisi və sürücüsü yaralandı.

***(Ardı var)***

***Musa QASIMLI,***
***Milli Məclisin deputatı,***
***AMEA-nın müxbir üzvü***

# İlham Əliyev Ermənistan hakimiyyətini ifşa etdi

## “Generalları oğru, qəhrəmanları cinayətkar, prezidentləri rüşvətxordur”

***Əvvəli 1-ci səh.***

İndi dünya miqyasında da birmənalı qəbul olunan həqiqət budur ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Hakimiyyətin dəyişməsi ilə nəticələnmiş inqilab eyforiyasından 2 il müddət vaxt keçməsinə baxmayaraq Ermənistanda mövcud sosial-iqtisadi problemlər yenidən ön plana çıxıb. İndi cəmiyyət Paşinyan hakimiyyətindən üzləşdikləri sosial çətinliklərin həllini tələb edir. Amma bunun üçün lazımi resurslar olmadığından ölkəni yenidən aksiyalar, tətillər bürüyüb.

Bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil. Məsələnin bu tərəfinə toxunan Prezident İlham Əliyev deyib: *“Yaxşı, baxaq görək, 2018-ci ildən bu yana nə baş verib. Guya orada demokratik inqilab olub. Hamısı yalandır. O pullar oraya haradan axıdılıb, biz bunu bilirik, yəqin ki, erməni xalqı da bilir. İndiki hakimiyyət hansı xarici dairələrdən idarə olunur, bunu hər kəs bilir. Sadəcə olaraq, indiki rəhbərlərin tərcümeyi-halına baxın, görün bunlar hansı fondlarda işləyiblər, kimdən pul alıblar. Postsovet məkanında həmin dırnaqarası inqilabları, əslində, qanlı çevrilişləri təşkil edənlər indiki Ermənistan rəhbərlərinin himayədarlarıdır. Onları idarə ediblər və əlbəttə ki, xalqda o çirkin kriminal, xunta rejiminə nifrət böyük idi. Ondan istifadə edib hakimiyyəti zəbt ediblər. Ondan sonra nə baş verir? Ondan sonra hazırda Ermənistanda artıq diktatura hökm sürür. Bu, qaçılmaz faktdır. Onlarda təqribən bir il bundan əvvəl həbsdə olan bir jurnalist axıra qədər aclıq elan edir və ölür. Heç bir beynəlxalq təşkilat, Avropa Şurası, ATƏT-in mətbuat üzrə xidməti bir səs belə çıxarmırlar. Nə üçün? Çünki bilirlər ki, indiki Ermənistanın rəhbərləri kimdir”.*

Azərbaycan danışıqlar prosesində həmişə ədalətli, prinsipial və beynəlxalq hüquqa əsaslanan mövqe nümayiş etdirib. Bu dəyişməz mövqeyi Prezident İlham Əliyev xarici ölkələrə səfərlərində, eləcə də ölkəmizə gələn nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin rəhbərlərinin diqqətinə dəfələrlə çatdırıb. Rəsmi Bakı istənilən beynəlxalq gərginlik və münaqişənin ayrı-ayrı dövlətlərin siyasi iddiaları, ikili standartlar sayəsində deyil, məhz aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında həllinin tərəfdarı kimi çıxış edir.

İşğal faktı ilə barışmayacağını hər zaman bəyan edən Azərbaycan danışıqların sonadək nəticəsiz qalacağı təqdirdə münaqişənin həllində güc yoluna əl atacağını gizlətmir. Söhbət ondan gedir ki, Ermənistan və Azərbaycan arasında 1994-cü il mayın 12-də atəşkəs rejiminin tətbiqini nəzərdə tutan Bişkek müqaviləsinin imzalanmasından 16 il keçsə də, Yerevanın qeyri-konstruktiv, təcavüzkar siyasəti üzündən beynəlxalq birliyin münaqişəni dinc yolla tənzimləmək cəhdləri hələ ki fayda verməyib.

Ötən illərdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) vasitəçiliyi ilə aparılan üzücü və gərgin danışıqlar prosesi bir neçə dəfə problemin real həlli müstəvisinə yönəlsə də, Ermənistan rəhbərliyinin aşkar siyasi cığallığı və siyasi qətiyyətsizliyi üzündən sülhə gəlmək mümkün olmayıb.

Ermənistanın təcavüzkar dövlət olmasına, işğalçılıq siyasəti yürütməsinə açıq-aşkar göz yumulur. Bu, bir yana, “demokratiya carçıları” Azərbaycandakı müsbət meyillərə kölgə salmağa çalışdıqları halda, təcavüzkar dövlətin daxilində cərəyan edən antidemokratik proseslərə, dövlətin antihumanist, insanlığa qarşı yönəlmiş zorakı addımlarına da göz yumurlar. Dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımlara gedir. Ona qarşı çıxan qüvvələr indi sərt şəkildə Paşinyanı müxtəlif məsələlərdə ittiham edərək, ölkəni uçuruma doğru yuvarladığını bildirirlər. Qeyd olunur ki, Ermənistanın gələcəyi əvvəllərdə olduğu kimi, bu gün də Paşinyan üçün elə də bir önəm kəsb etmir. Çünki hələ 2018-ci ildə Paşinyan hakimiyyətə gətiriləndə Ermənistanda çoxları onun ölkəyə rəhbərlik etmək iqtidarında olmadığını yaxşı anlayırdılar. Göründüyü kimi, bu da özünü çox gözlətmədi - koronavirus böhranı onun nəyə qadir olduğunu ortaya qoydu.

Belə vəziyyətdə baş nazir Paşinyan rəqiblərə qarşı gücü işə salır. Ümumiyyətlə, Paşinyanın tapşırığı ilə indiyədək Ermənistanın keçmiş rəhbərliyinə qarşı silsilə cinayət işləri açılıb və hazırda istintaq davam edir. Gələcəkdə özünə rəqib olacaq və ya rəqib olmaq ehtimalı olan istənilən şəxsi korrupsiya ilə mübarizə ittihamı ilə həbs etmək tam gözləniləndir. Ölkədə siyasi repressiyalar həyata keçirilir və Paşinyanın yeganə məqsədi öz hakimiyyətinin müddətini uzatmaqdır. Məsələnin bu tərəfinə də toxunan Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanda siyasi opponentlər təqib edilir, həbs olunur, konstitusiyaya qanunsuz dəyişikliklər edilir. Halbuki bu dəyişikliklər ancaq referendumda edilə bilər. Gördülər ki, referendumda keçməyib, parlamentdə dəyişikliklər etdilər. Deməli, hakimiyyət bölgüsü tamamilə pozulub: *“Qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə-hüquq sahəsi artıq bir adamın əlindədir, bir alətdir və bu diktatura möhkəmlənir. Eyni zamanda Ermənistanda korrupsiya, talançılıq, rüşvətxorluq, qohumbazlıq kütləvi xarakter alıb. İndi bunu artıq üzə çıxardırlar. Sən demə, qaçaqmalçılıqla baş nazirin özü və onun ailəsi məşğuldur. Siqaret qaçaqmalçılığının başında baş nazir, onun ailəsi, yaxınları dayanır. Ondan sonra zəngin iş adamlarına qarşı cinayət işləri açılır, sonra da onlar məcbur edilir ki, - bir fond yaradıblar, - o pulları fonda köçürsünlər. O fonddan da bu pullar çəkilir, mənimsənilir. Yəni bu gün Ermənistanın baş naziri və onun yaxın qohumları, ətrafı rüşvətxorluq rəmzinə çevrilib. Baxın, bunların maliyyə imkanları iki il bundan əvvəl nə idi, indi nədir. Ona görə Ermənistanda diktatura hökm sürür və bu, nə qədər belə çox davam edərsə, orada problemlər böhranlı həddə bir o qədər tez çatacaq”.*

Bütün bunlar göstərir ki, qarşıdakı dövrdə də Ermənistanda sabitlik olmayacaq.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# *Azərbaycan XİN:* “Ermənistana çox yaxşı bəllidir ki, “Qarabağ xalqı” adlı anlayış mövcud deyil”

Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə 30 iyun tarixində keçirilən onlayn görüşü ilə bağlı Ermənistan XİN-in yaydığı məlumatda Azərbaycanın “qeyri-konstruktiv bəyanatlarına” istinad edilərək, “Qarabağ xalqının” təhlükəsizliyindən bəhs edilir.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bununla bağlı KİV-in sualını cavablandırıb.

Leyla Abdullayeva deyib: “ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin iyunun 30-da keçirilən videokonfrans formatında görüşü ilə bağlı Azərbaycan XİN-in rəsmi açıqlaması yayıldı. Qeyd etdiyimiz kimi, görüş zamanı nazir Elmar Məmmədyarov Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyəti, o cümlədən həyata keçirilən infrastruktur dəyişiklikləri məsələsini qaldırdı. Nazir, həmçinin məhz Ermənistanın təxribatçı əməllərinin ritorikanın alovlanmasına xidmət etdiyini vurğuladı.

Ermənistan XİN-in görüşlə bağlı yaydığı açıqlama işğalçı ölkənin ənənəvi olaraq sərgilədiyi tamamilə əsassız mövqeyi növbəti dəfə təkrarlayır. Aydındır ki, bölgədəki gərginliyin, ritorikanın, qarşıdurmanın, düşmənçiliyin kökündə Ermənistanın təcavüzkar siyasəti, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini hərbi işğal altında saxlaması və bu ərazilərdəki çoxsaylı yerli azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirməsi durur. Əhalini sülhə hazırlamaq öhdəliyindən danışan Ermənistan bu öhdəliyinə əməl edərək işğalçı qüvvələrini Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarından çıxarmalı və məcburi köçkünlərin öz evlərinə geri dönməsinə maneə yaratmamalıdır.

O ki qaldı Ermənistan XİN-in istinad etdiyi “Qarabağ xalqı” ifadəsinə, hamıya, elə Ermənistanın özünə də çox yaxşı bəllidir ki, “Qarabağ xalqı” adlı anlayış mövcud deyil. Qarabağda yaşayan ermənilər Azərbaycanın bu bölgəsində yaşayan iki icmadan birini təşkil edir. Qarabağın azərbaycanlı icması Ermənistanın təcavüzü nəticəsində evlərindən didərgin düşüb, məcburi köçkünə çevrilib. Münaqişənin həlli üzrə aparılan danışıqların məqsədi də elə bu insanların pozulmuş fundamental hüquq və azadlıqlarının bərpa edilməsidir, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazilərindən çıxarılmasının təmin edilməsidir. Bölgədə davamlı sülh, sabitlik və təhlükəsizliyin təmin olunmasının başqa yolu yoxdur”.

# Atəşkəs rejimi 50 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı silahlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 50 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# “Qarabağ”, 30 yaşın mübarək!

**30 il öncə - 1990-cı ilin may ayında Dağlıq Qarabağ və ətraf rayonlarda baş verən hadisələrin daha dəqiq və obyektiv işıqlandırılması üçün “Qarabağ” adlı qəzet təsis edildi.**


“Qarabağ”ın 30 ili

QARABAĞ

İşğala son qoyulmalıdır!

Bizim faciəmizi, həqiqətləri dünyaya çatdırmağınızı istəyirik

Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə Respublika Təşkilat Komitəsinin orqanı kimi 1990-cı il iyul ayının 1-də işıq üzü görən “Qarabağ” ilk gündən Qarabağın tarixi, mədəniyyəti, adət-ənənəsi və görkəmli şəxsiyyətləri haqqında oxuculara ətraflı məlumat verməyə başlayıb.

Həmin vaxt bölgədə erməni separatizmi baş qaldıraraq azərbaycanlılara qarşı torpaq iddiası ilə bölgədə müharibə şəraiti yaratmışdı.

Qəzetin əməkdaşları münaqişənin alovlandığı bütün nöqtələrdən real vəziyyət haqqında respublika oxucularına və dünya ictimaiyyətinə Azərbaycan və rus dillərində dəqiq və operativ məlumatlar çatdırırdı.

40 min tirajla çap olunan “Qarabağ” qəzeti 27 fevral 1992-ci il tarixli sayında - Xocalıda baş verən hadisələri “Xocalıda soyqırımı törədildi” başlıqlı xəbərlə tam dolğunluğu ilə Azərbaycana yayan ilk qəzetlərdən olub.

Çox böyük sıxıntılarla da olsa fəaliyyət göstərən “Qarabağ” qəzetinin davamlı çap olunmasını arzulayaraq “Qarabağ”lıları 30 illik yubileyləri münasibətilə təbrik edir, qəzetin ilk redaksiyasının yerləşdiyi məkanına - Ağdam şəhərinə DÖNÜŞÜNÜ diləyirik.

*“Azərbaycan”*

# «Əkinçi»dən başlayan milli mətbuata dövlət qayğısı

*Əvvəli 1-ci səh.*

145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifpərvər, publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlayan “Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanının ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə yazılıb.

Prezidentin 30 iyun tarixli sərəncamında ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanların yaranması xüsusi qeyd edilir: “1993-cü ildən başlayaraq Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür”.

Müstəqil fəaliyyətini günün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı olan və xalqımızın milli maraqlarını rəhbər tutan mətbuatın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır.

Söz və məlumat azadlığının təmin olunması sahəsində yürüdülən siyasət nəticəsində bu gün Azərbaycan KİV-in sayına görə MDB və Şərqi Avropa ölkələri arasında ön sıralardadır. 4500-dən artıq mətbuat orqanı Ədliyyə Nazirliyində, 50-dən çox informasiya agentliyi isə müvafiq dövlət orqanlarında qeydiyyatdan keçərək fəaliyyət göstərir.

Azərbaycan mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu mərhələ həm də Azərbaycanda demokratik dövlət quruculuğu dövrü kimi tarixə yazılıb. Yeni inkişaf dövrünün təməlini qoyan Ulu Öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib. Müstəqillik dövründə Azərbaycan mətbuatı ilə bağlı ilk fərmanı da məhz Ümummilli Lider Heydər Əliyev verib. Ulu Öndər azad və müstəqil mətbuatın problemlərinin həlli ilə bağlı 10-dan çox sərəncam və fərman imzalayıb. Ümummilli Liderin 6 avqust 1998-ci il tarixli sərəncamı ilə Azərbaycanda senzura ləğv olunub.1999-cu ildə “Kütləvi İnformasiya Vasitələri haqqında” beynəlxalq tələblərə cavab verən Qanun qəbul edilib. Bununla da milli mətbuatın inkişafı yolunda yeni perspektivlər açılıb. Bu siyasətin davamlılığını təmin etmək məqsədilə 2001-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunub. Dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilib. 2003-cü ildə Azərbaycan Jurnalistlərinin I Qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən Mətbuat Şurası yaradılıb.

Müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığına, KİV-ə istər hökumət, istərsə də cəmiyyət tərəfindən ən yüksək səviyyədə diqqət göstərilir.

Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə “Azərbaycan Respublikasında KİV-in inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi”, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlardan sayılır.

Milli mətbuatın yubileylərinin qeyd olunması, KİV-ə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin bu sahənin inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da dövlət qayğısının tərkib hissəsidir.

Mətbuat Şurasının yeni binasının açılış mərasimində Prezident İlham Əliyevin jurnalistlər qarşısındakı çıxışı bir daha təsdiq etdi ki, azad mətbuatın inkişafı dövlət siyasətində prioritetdir. Ölkə rəhbərinin “Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında” 2010-cu il 22 iyul tarixli sərəncamı isə jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı dövlət siyasətini bir daha ortaya qoydu.

Bu peşənin layiqli təmsilçiləri də dövlət başçısının KİV-ə daimi dəstəyini və qayğısını diqqətdən kənarda saxlamayıb. Jurnalistlər üçün yaşayış binasının dövlət vəsaiti ilə tikilməsi kimi xeyirxah bir missiya onları öz dostlarını seçməkdə çətinə salmayıb. “Ruh” Azərbaycan Jurnalistlərinin Müdafiə Komitəsinin 2010-cu ildə keçirdiyi rəy sorğusunun nəticələrinə əsasən, Prezident İlham Əliyev KİV-in inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə “Jurnalistlərin dostu” mükafatına layiq görülüb.

2013-cü il iyulun 22-də - Milli Mətbuat Günündə 156 mənzildən ibarət onyeddimərtəbəli birinci yaşayış binasının açılışında Prezident İlham Əliyev jurnalistlər üçün inşa ediləcək növbəti binanın təməlini qoydu. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan media nümayəndələri 2013-cü ildə yenidən Prezident İlham Əliyevi “Jurnalistlərin dostu” elan etdilər.

Dövlət başçısı jurnalistlər üçün tikilən ikinci binanın açılışını da əlamətdar tarixi gündə - milli mətbuatın yaradılmasının 142-ci ildönümü ərəfəsində etdi. Bu dəfə 255 jurnalist mənzillə təmin olundu. Açılış mərasimində Prezident bir daha bəyan etdi ki, mətbuat nümayəndələrinə bu qayğı davamlı olacaq. Tədbirdə, həmçinin media mənsubları üçün tikiləcək üçüncü binanın da təməli qoyuldu.

Milli mətbuatın inkişafında xidmətləri olan jurnalistlərin mükafatlandırılması, orden, medal və fəxri adlarla təltif olunması da ölkəmizdə mətbuata dövlət qayğısının bariz nümunələrindəndir. Azərbaycan dövləti mətbuatın inkişafındakı marağını ən müxtəlif tədbirlərlə konkret şəkildə ortaya qoyur. Ölkəmizdə dünya standartlarına uyğun media, elektron və yazılı KİV artıq formalaşıb, yüzlərlə mətbu orqan sərbəst fəaliyyət göstərir. Azərbaycan müasir texnologiyaların tətbiqində də öz sözünü deyir. İnternet jurnalistikası inkişaf edir, söz azadlığı isə birmənalı şəkildə təmin olunub. Bu gün Azərbaycanda 40-dan artıq gündəlik, 200-dən çox həftəlik və aylıq qəzetlər oxucuların görüşünə gəlir. Ölkə ərazisində 10 milli, 1 peyk, 13 regional və 17 kabel televiziyası yayımlanır. Respublika əhalisinin 80 faizindən çoxu fəal internet istifadəçisidir. Sosial mediadan istifadə edənlərin sayı 2 milyon nəfəri ötüb. Bu rəqəm onu nümayiş etdirir ki, ölkəmizdə azad media çox uğurla inkişaf edir.

Dövlət başçısının milli mətbuatın yubileyləri münasibətilə imzaladığı sərəncamlar, eləcə də jurnalistlərin sosial problemlərinin həlli istiqamətində atdığı addımlar KİV nümayəndələrinə yüksək qayğının əyani təzahürüdür.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# “AzerGold” QSC-nin ötən ilin yekunlarına dair maliyyə hesabatları dərc edilib

**“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) 2019-cu ilin yekunlarına dair maliyyə hesabatları dərc edilib.**

Müstəqil auditor şirkəti tərəfindən aparılan maliyyə yoxlamaları nəticəsində müsbət rəy verilən maliyyə hesabatlarına əsasən səhmdar cəmiyyətin ötən ili də yüksək gəlir və mənfəətlə başa vurduğu, bütün göstəricilər üzrə mövqeyini daha da möhkəmləndirdiyi öz təsdiqini tapıb.

Ümumilikdə 2019-cu ildə 2018-ci illə müqayisədə cəmiyyətin qızıl hasilatında 21.4 faiz, gümüş hasilatında isə 33.3 faiz artım qeydə alınmışdır. QSC-nin maliyyə hesabatlarında qeyd edildiyi kimi, hesabat ili ərzində dünya bazarlarında qızıl və gümüşün qiymətinin artması fonunda qiymətli metalların satışından ölkə iqtisadiyyatına 86.2 milyon ABŞ dolları həcmində vəsait cəlb edilmişdir ki, bu da 2018-ci illə müqayisədə 48 faiz (27.8 milyon ABŞ dolları) daha çoxdur. Nəticədə, qapalı səhmdar cəmiyyətin xalis mənfəəti 2018-ci illə müqayisədə 55 faiz həcmində artaraq 12.4 milyon ABŞ dolları təşkil etmişdir.

Maliyyə hesabatı və digər maliyyə göstəriciləri üzrə məlumatları səhmdar cəmiyyətin rəsmi saytında əldə edə bilərsiniz.

# Ağstafa taxılçıları bu il də zəmilərdə bol məhsul yetişdirib

Artan iqtisadi potensial fonunda ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Aqrar sektora dövlət tərəfindən qoyulan investisiyalar ilbəil artır.





Yeni texnikalar alınır, yetişdirilən məhsula görə subsidiyalar ayrılır, güzəştli şərtlərlə gübrə, yanacaq verilir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə verilən kreditlər hesabına yeni istehsal sahələri yaradılır. Bütün bunlar isə kənd adamlarını torpağa daha dərindən bağlamaqla yanaşı, onlara ildən-ilə fəaliyyətlərini genişləndirməyə stimul verir. Nəticədə etibarlı ərzaq təminatı üçün geniş imkanlar açılır.

Ölkədə ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları da bu sahədə yeni uğurların qazanılmasına səbəb olur. Xüsusilə taxıl istehsalının artırılması istiqamətində görülən işlər onu deməyə əsas verir ki, yaxın gələcəkdə əhalinin bu vacib ərzaq məhsuluna olan tələbatı daxili imkanlar hesabına ödəniləcək. Bunu son illər taxılçılıqda qazanılan uğurlar da təsdiq edir.

Ərzaq məhsulları sırasında taxılın xüsusi yeri olduğunu yaxşı bilən ağstafalılar hər il bu sahədə yüksək göstəricilərə nail olurlar. Təkcə keçən il 10288 hektar sahədə taxıl yetişdirən fermerlər hər hektardan 36,4 sentner buğda, 28,1 sentner arpa götürdülər. Bu uğurdan ruhlanan taxılçılar cari ilin məhsulu üçün əkin sahələrini bir qədər də genişləndirərək 10307,9 hektara çatdırdılar ki, onun da 8304,4 hektarını buğda, 2003,5 hektarını isə arpa təşkil edir. Hazırda rayonda arpa biçini gedir. İyulun 1-nə olan məlumata görə, 1130 hektarda biçin başa çatdırılmışdır. Belə ki, hələlik arpa sahələrinin hər hektarından 28,3 sentner məhsul götürülür. Biçində texnika sarıdan da çətinlik yoxdur. Gündə zəmilərə 10 ədəd kombayn və 20-dən artıq nəqliyyat vasitəsi çıxır.

Rayonda fəaliyyət göstərən böyük taxılçılıq təsərrüfatlarından olan Ağstafa Aqrar Sənaye Kompleksi 2019-cu ildə 1700 hektar sahədə buğda əkib becərmiş, hər hektardan orta hesabla 45 sentner məhsul götürmüşdür. 2020-ci ilin məhsulu üçün 2000 hektar sahədə taxıl əkən kollektiv bu il daha böyük uğurlara imza atacağına əmindir. Bunun üçün yetişdirilən məhsula yüksək səviyyədə aqrotexniki qulluq göstərilir.

Dağ Kəsəmən kəndinin sakini Nəsib Qədiməliyev də taxılçılıqda zəngin təcrübəyə malikdir. Keçən il kənd ərazisində 100 hektar sahədə taxıl əkən fermer bol məhsul götürmüşdür. Bu uğurdan ruhlanan fermer 2020-ci ilin məhsulu üçün taxıl sahələrinin həcmini 150 hektara çatdırmışdır. O deyir ki, taxılçılıq gəlirli sahədir. Lakin gərək həm torpağın strukturunu biləsən, həm də səpdiyin toxumun kondisiyasına bələd olasan. Ən vacib məsələ isə bitkinin vegetasiya dövrünü diqqətdə saxlamaqdır. Gərək gübrəni də, suyu da vaxtında verəsən. Bax onda uğur qazana bilərsən. Var olsun dövlətimiz. Biz fermerlərə hər cür şərait yaradıb. Onun qayğısını hər zaman hiss edirik. Məsələn, 1 hektar buğda üçün 90 AZN, arpa üçün isə 50 AZN subsidiya alırıq. Eyni zamanda fermerlərə 70 faiz güzəştlə gübrə satılır. Hələ motor və sürtkü yağlarına görə də əlavə vəsait ödənilir.

Adil Nəsibov da işgüzar fermerlərdəndir. Hər il Poylu kəndində götürdüyü pay torpaqlarında bol məhsul yetişdirir. Keçən il 80 hektarda taxıl əkən təsərrüfat sahibi yüksək göstəriciyə nail olduğu üçün cari ildə əkin sahəsini 200 hektara çatdırmışdır. Hazırda fermer arpa biçini həyata keçirir. Biçində elə bir problemi yoxdur. Çünki təsərrüfatda istənilən qədər texnika var. Belə ki, şum traktorundan tutmuş səpin aqreqatına, hətta taxılbiçən kombayna qədər hər cür texnikası var. Hər il biçini vaxtından qabaq başa çatdıran Adil Nəsibov məxsus olduğu kombaynı kömək məqsədilə digər təsərrüfatlara da göndərir.

Adil Nəsibov istehsal etdiyi buğdanın bir hissəsini toxum kimi tədarük edir. Bunun üçün təsərrüfatın ən müasir toxumtəmizləyən avadanlıqları da var. Fermer hər il təsərrüfatlara 3 min tondan çox toxum satır ki, bu da onun gəlirlərinə müsbət təsir göstərir.

Rayonda ən çox taxıl yetişdirən fermerlərdən biri də Asif Allahverdiyevdir. O, keçən il əldə etdiyi göstəricidən ruhlanaraq cari ilin məhsulu üçün əkin sahələrini bir qədər də genişləndirərək 45 hektara çatdırmışdır. Hər il icarəyə götürdüyü pay torpaqlarında daha məhsuldar olan “Azəri”, “Aran”, “Qarabağ-22” taxıl sortları əkir ki, bu da fermerə çoxlu gəlir gətirir.

Hazırda Ağstafada biçinin qızğın çağıdır. Demək olar ki, rayonun dağ kəndlərindən başqa bütün ərazilərində arpa biçini aparılır. Biçinin optimal müddətdə başa çatması üçün Ağstafa Dövlət Aqrar İnkişaf Mərkəzində qaynar xətt və operativ qərargah fəaliyyət göstərir. Biçin vaxtı qarşıya çıxan hər hansı problem elə yerindəcə həll edilir. Qərargahın üzvləri, demək olar ki, hər gün taxıl sahələrində olur, təsərrüfat sahiblərinə lazımi dəstək göstərirlər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***


# REQUEST FOR EXPRESSIONS OF INTEREST
# CONSULTING SERVICES – INDIVIDUAL CONSULTANTS' SELECTION

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
**Loan No./Credit No./ Grant No.: P122812, Ln 8286Az**

**Assignment title: Preparation web portal of ATLAS**
**Reference No.: AZ-AACD-161352-CS-INDV**

The Government of Azerbaijan and the World Bank is implementing “Agricultural Competitiveness Improvement Project” (ACIP) in Azerbaijan. The overall obyective of the Project is to facilitate the access of agricultural producers to markets by strengthening sanitary and phyto-sanitary services, enhancing selected value chains and providing financial services to agribusiness enterprises. The Project would further promote agribusiness/food processing through providing the access to finance to improve theirtechnologies and increase production and upgrade and modernize the plant protection service and veterinary services. The Project also facilitates development of selected high-value chains through a series of activities and interventions targeted at key constraints in the functioning of marketing chains of agricultural commodities. Finally, the Project will support a focused food safety capacity building program for both public and private sector.

The project consists of four components:

- *Component A – Support for sanitary and phytosanitary services;*
- *Component B - Agri-food value chain development;*
- *Component C – Financial services to agribusiness;*
- *Component D - Project Management.*

The Project is managed by the Agro Credits and Development Agency (ACDA), which is the Ministry of Agriculture’s agency for overseeing international agricultural development projects, primarily through the Project Management Unit (PMU) established within ACDA.

Sub-component A2:

This sub-component focuses on strengthening pest diagnostic, pest control and pest risk analysis capacity of the Azerbaijan Food Safety Agency (AFSA) through upgrading laboratories, targeted technical assistance and training. Amongst activities initiated and successfully completed by ACIP in the abovementioned scope was development of an Atlas of Quarantin Pests for Azerbaijan. The Atlas is an Inspectors’ Manual to provide up-to-date biological information and equip phytosanitary inspectors at inspection points and inspecting consignments with documentation material, including imaging of quarantine pests for Azerbaijan. The Atlas has been prepared by the groups of scientists with support of the project.

**The objective of the Assignment**

**The objective of assignment** to develop the electronic – web format of ATLAS system on Quarantine Pests for Azerbaijan in order to increase the its outreach and functional capabilities.

The electronic version of ATLAS is expected to be built on all platform-supported web pages.

**Duration of the task**

The assignment is considered to be implemented within 50 calendar days. The task is expected to be implemented in August-September 2020.

**Working arrangements**

Consultant will work closely with Client (Agro Credits and Development Agency (ACDA) and PIU.

**Qualification and Experience requirements**

- University degree in Computer Science or IT;
- Minimum 5 years’ proven experience in web-designing; availability to demonstrate the prepared webpages;
- At least three years experience in Application Development;
- Proven experience Adobe Photoshop, Macromedia Flash;
- Previous experience with World Bank - funded projects and understanding of its requirements is preferable
- Good command of English and Azerbaijani writing skills is advantage;
- Good inter-personal and communication skills.

The Agricultural Competitiveness Improvement Project now invites eligible Local Individual Consultants to indicate their interest in providing the services. Interested Consultants should provide detailed CV and respective information, demonstrating that they have the required qualifications.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank’s *Guidelines: Selection and Employment of Consultants under IBRD Loans and IDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* (“Consultant Guidelines”), setting forth the World Bank’s policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by July 17, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**

**Attn: Mr. Anar Azimov**
**Project Director**

**AZ1108, Ziya Bunyadov avenue 1965, Chinar Park Business Center, Baku, Azerbaijan**

**Tel: (+99 412) 525 01 18**
**E-mail:a.azimov@akia.gov.az;**
**anarazim@gmail.com;**
**gunelsafaraliyeva@gmail.com;**
**nargiz.acip@gmail.com;**
**n.isgandarova@akia.gov.az,**
**firdovsi.aghashirinov@asf.gov.az**
**Web: www.akia.gov.az**

**Further information can be obtained at the address above during office hours 09:00 - 18:00**

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

*2020/2021-ci tədris ilində ödənişli əsaslarla*
**təkrar ali təhsil almaq üçün sənəd qəbulunun müddəti 2020-ci il sentyabr ayının 1-dək uzadılmışdır.**

- **050401 Dünya iqtisadiyyatı**
- **050403 Maliyyə**
- **050404 İqtisadiyyat**
- **050402 Mühasibat uçotu və audit**
- **050406 Statistika**
- **050407 Menecment**
- **050410 Dövlət və bələdiyyə idarəetməsi**
- **050655 İnformasiya texnologiyaları**
- **050656 Sistem mühəndisliyi**
- **050409 Biznesin idarə edilməsi**
- **050405 Sənayenin təşkili və idarə olunması**
- **050408 Marketinq**
- **050510 Ekologiya**
- **050411 Kommersiya**
- **050644 İstehlak mallarının ekspertizası və marketinqi**
- **050642 Qida məhsulları mühəndisliyi**
- **050321 Dizayn**
- **050643 Çoxişlənən malların texnologiyası mühəndisliyi**
- **050625 Texnoloji maşın və avadanlıqlar mühəndisliyi**
- **050647 Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi**

**UNEC-in Zaqatala filialı üzrə**

- **050403 Maliyyə**
- **050404 İqtisadiyyat**
- **050402 Mühasibat uçotu və audit**
- **050407 Menecment**
- **050655 İnformasiya texnologiyaları**
- **050409 Biznesin idarə edilməsi**
- **050408 Marketinq**
- **050810 Turizm və hotelçilik**

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada **http://www.kabinet.unec.edu.az** internet linki vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar. Təkrar ali təhsil almaq hüququ qazanacaq şəxslər üçün vəziyyət nəzərə alınmaqla tədrisin distant formada təşkili istisna edilmir.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***

- rektorun adına ərizə;
- ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
- 3x4 sm ölçüdə fotoşəkil;
- şəxsiyyət vəsiqəsinin surəti.

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: Akademik Həsən Əliyev küçəsi, 135, otaq 518**
**Tel.: (012) 564 38 92**
**Mobil : (070) 578 08 59 (həmçinin WhatsApp ünvan)**
**Facebook ünvanı: https://www.facebook.com/unectekraralitehsil/**

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 - Xətt təsərrüfatında istifadə olunacaq plan profilaktik işlər üçün mal-materialların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 üzrə 600 (altı yüz) manat (ƏDV daxil)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **23 iyul 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **04 avqust 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **05 avqust 2020-ci il saat 10:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada* ***etender@gov.az*** *dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

## "Zabrat İstehsalat" ASC səhmdarlarının nəzərinə

15 avqust 2020-ci il saat 08:30-da "Zabrat İstehsalat" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcək.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin ümumi yığıncağı haqqında reqlamentin təsdiq edilməsi.
2. Səhmdar cəmiyyətin 2019-cu il üçün maliyyə-təsərrüfat hesabatı.
3. Səhmdar cəmiyyətin fəaliyyət göstərməməsi səbəblərinin müzakirəsi.

***"Zabrat İstehsalat" ASC***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# OXUCULARIN NƏZƏRİNƏ "AZƏRBAYCAN"

***qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuat yayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*1 aylıq*
**10,40 (on manat qırx qəpik) manat**

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Bakının küçə və prospektlərində quraşdırılmış xüsusi polis postları bugündən ləğv edilir

**Ölkəmizdə tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar Bakı şəhərinin giriş və çıxışları istisna olmaqla, küçə və prospektlərdə quraşdırılmış xüsusi polis postları iyul ayının 2-dən ləğv ediləcək.**




Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, buna səbəb şəhərdaxili yollarda avtonəqliyyatın hərəkətinin intensivliyini təmin etmək, sərtləşdirilmiş xüsusi karantin rejiminə nəzarətə daha çox əməkdaşın cəlb edilməsidir.

Bundan sonra şəhərdəki bütün qapalı məkanlarda vətəndaşlarımızın karantin rejimindən irəli gələn tələblərə, xüsusilə tibbi maskadan istifadə və sosial məsafənin gözlənilməsinə mütləq qaydada riayət etmələrinə nəzarət daha da gücləndiriləcək.

Küçə və prospektlərdə, eləcə də şəhərdaxili məhəllələrdə piyada patrul naryadlarının sayı artırılacaq, nəqliyyat vasitələrinin hərəkətinə müvafiq icazənin olub-olmaması isə videomüşahidə kameraları ilə müəyyən ediləcək.

Həyata keçirilən bütün tədbirlər əhalinin təhlükəsizliyinin təmin edilməsi və onların sağlamlığının qorunmasına xidmət edir. Ona görə də vətəndaşlarımızdan xüsusi karantin rejimindən irəli gələn tələblərə mütləq riayət etmələri tələb olunur.

# Azərbaycanda koronavirusa daha 588 yoluxma faktı qeydə alınıb, 346 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 588 yoluxma faktı qeydə alınıb, 346 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 18 min 112 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 10 min 61 nəfər müalicə olunaraq sağalıb, 220 nəfər vəfat edib. Aktiv xəstə sayı 7831 nəfərdir.

Ötən müddət ərzində 488 min 852 test aparılıb. Bugünkü test sayı isə 6682-dir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Ağalar Vəliyev Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin İşlər İdarəsinin kollektivi iş yoldaşları Miryusif Qasımova atası

**ABDULLA QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Şaiq və Elşən Əfəndiyevlərə əzizləri

**İNESSA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Sumqayıt Apelyasiya Məhkəməsinin sabiq hakimi

**AZƏR HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev ailəsi ilə birlikdə Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev ailəsi ilə birlikdə Şaiq və Elşən Əfəndiyevlərə əzizləri

**İNESSA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Bakı Apelyasiya Məhkəməsinin hakimi

**NAMIQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Bakı Apelyasiya Məhkəməsinin hakimi

**ƏFLATUN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Bakı Apelyasiya Məhkəməsinin sabiq hakimi

**MÜSEYİB HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQİQƏT ŞƏRİFOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Tunelçilər Birliyinin sədri Şaiq Əfəndiyevə həyat yoldaşı

**İNESSA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi

**HƏQIQƏT ŞƏRİFOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şəki Apelyasiya Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**NAMIQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6139
Sifariş 1617
Qiyməti 40 qəpik